Günəş Şərqdən doğur!

№ 79 (5360), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 5 may 2021-ci il (çərşənbə)



## Hərbçilərlə bağlı yeni qanun layihəsi hazırlanır

(Səh.9)

**Günün içindən...**



### Rəsmi Bakı Ermənistan XİN-ə cavab verdi

Şuşa şəhərində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir

"Azərbaycanın 30 ilə yaxın işğal altında saxlanılan ərazilərinin azad edilməsi ilə ölkəmiz bu ərazilərin bərpa və quruculuq prosesinə başlayıb. Hazırda bu ərazilərdə nəhəng yenidənqurma işləri həyata keçirilir, o cümlədən onilliklərlə davam edən Ermənistan işğalı zamanı yerlə yeksan edilmiş tarixi, mədəni və dini irsimiz bərpa olunur".

(səh.2)

### Generallar sərhədə gedib



Azərbaycan-İran sərhədində xidmət edən sərhədçilərə yeni tapşırıqlar verilib

(səh.2)

# Bayden icazə verdi



## ABŞ Azərbaycana hərbi yardım göstərəcək

**ABŞ Prezidenti Co Bayden Azərbaycana hərbi yardımın göstərilməsinə icazə verib.**

Bayden administrasiyası aprelin 26-da Konqresi "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin təxirə salınması barədə məlumatlandırıb.

(səh.5)

## Üç erməni hərbçi azad olundu

Azərbaycan tərəfi növbəti humanist addımını atıb

(səh.4)



### Elə bil Azərbaycanın öz dərdi yoxdur

"Məscidlərimizdəki mollaların bir çoxu oranı qonşu ölkələrin təbliğat meydanına çeviriblər"

(səh.3)

### May ayı ən uyğun zamandır

"Xankəndidə anti-terror əməliyyatlarına başlamağın vaxtıdır"

(səh.8)

### 17 nəfər vəfat edib

Koronavirusa yoluxanların sayı 1000-dən aşağı düşdü

(səh.9)

### "Kaş anasının yasına gəlməzdi"

Aslanın ölümü sənət dostlarını qəhərə boğdu

(səh.14)



### Fransalı deputat "Qarabağ Azərbaycandır" dedi

Aparıcı hiddətləndi, Ermənistanda bunt yaşandı...

(səh.8)

### NATO-nun böyük təcrübəsi var

Tərəfdaşlıq proqramında iştirak Azərbaycan hərbçilərinin peşəkarlığını artırır



(səh.7)

## Generallar sərhədə gedib

### Azərbaycan-İran sərhədində xidmət edən sərhədçilərə yeni tapşırıqlar verilib



**Azərbaycan-İran dövlət sərhədində xidmət edən sərhədçilərə yeni tapşırıqlar verilib.**

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev mayın 3-4-də işğaldan azad olunan ərazilərdə səfərdə olublar.

Səfər çərçivəsində həmçinin Azərbaycan-İran dövlət sərhədində Zəngilan rayonu ərazisində "Bartaz" sərhəd zastavasında xidməti-döyüş fəaliyyətinin təşkili, dövlət sərhədinin etibarlı mühafizəsinin daha da yüksəldilməsi üçün görülən işlərlə yerindəcə tanış olunub, şəxsi heyətin xidməti və yaşayış şəraitinə baxış keçirilib, zəruri tapşırıq və tövsiyələr verilib.



## Radiotezliklər üzrə Dövlət Komissiyası yaradılıb

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikasında radiokommunikasiya vasitələrindən və yüksəktezlikli qurğulardan istifadənin səmərəliliyini artırmaq və bu sahədə dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək məqsədilə Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası yaradılıb.

Dövlət Komissiyasının sədri nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri, üzvləri isə müdafiə və daxili işlər nazirlərinin müavinləri, Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavinidir.

Komissiyanın qərarı ilə dövlət orqanlarının (qurumlarının) nümayəndələri Dövlət Komissiyasının işinə cəlb edilə bilərlər.

Nazirlər Kabinetinə bir ay müddətində Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

## "Azərsu"nun sədri vəzifəsindən azad edildi



**Prezident İlham Əliyev Q.C.Hüseynovun "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Qorxmaz Cavanşir oğlu Hüseynov "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilib.

## DSX rəisinin səlahiyyəti artırılır



**Dövlət Sərhəd Xidmətinin rəisinin səlahiyyəti artırılır.**

Bu, Prezident İlham Əliyevin bu gün imzaladığı fərmanla "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"də edilən dəyişikliklə əksini tapıb.

Dövlət Sərhəd Xidmətinin rəisi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Vətən Müharibəsi Qəhrəmanlarının adlarını xidmət etdikləri sərhəd zastavalarına və digər sərhəd bölmələrinə verəcək.

## Türkiyə səfiri Hərbi Qənimətlər Parkında olub



**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı Hərbi Qənimətlər Parkını ziyarət edib.**

Səfir bununla bağlı fotoları tvitter hesabında paylaşıb.

"Bu gün Qarabağın erməni işğalından azad olunması ilə formalaşdırılan Hərbi Qənimətlər Parkındayıq. Zəferiniz mübarək, qardaşım", - səfir qeyd edib.

## Minsk Qrupu yenidən dövriyəyə girir

### Yaxın günlərdə Rusiya və Fransa Qarabağla bağlı konkret təşəbbüs irəli sürəcəklər

**Rusiya və Fransa prezidentləri yaxın vaxtlarda Qarabağ münaqişəsinin davamlı şəkildə həlli üçün konkret təşəbbüslə çıxış edəcəklər. Bunu Fransanın Ermənistandakı səfiri Conatan Lakott erməni mətbuatına müsahibəsində bildirib.**

Aprelin 26-da Fransa Prezidenti Emmanuel Makronla Rusiya lideri Vladimir Putin arasında telefon danışığının baş tutduğunu yada salan səfir bildirib ki, həmin vaxt Makron hərbi əsirlər, humanitar yardım və mədəni irsin qorunması məsələsində konkret tərəqqinin əldə olunmasının vacibliyini vurğulayıb.

"Hər iki prezident məsələnin birdəfəlik həllinə nail olmaq üçün Minsk Qrupu daxilində səyləri yeniləməyə dair razılığa gəliblər. (Sputnik Azərbaycan) Yaxın gələcəkdə bu istiqamətdə konkret təşəbbüslər irəli sürüləcək", - deyə Lakott qeyd edib. Səfir Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli ilə bağlı danışıqların bərpasının həmsədrlər üçün prioritet olduğunu və bunun onların 13 aprel açıqlamasında da öz əksini tapdığını vurğulayıb.

# Rəsmi Bakı Ermənistan XİN-ə cavab verdi

### Şuşa şəhərində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir



*"Azərbaycanın 30 ilə yaxın işğal altında saxlanılan ərazilərinin azad edilməsi ilə ölkəmiz bu ərazilərin bərpa və quruculuq prosesinə başlayıb. Hazırda bu ərazilərdə nəhəng yenidənqurma işləri həyata keçirilir, o cümlədən onilliklərlə davam edən Ermənistan işğalı zamanı yerlə yeksan edilmiş tarixi, mədəni və dini irsimiz bərpa olunur".*

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan tərəfindən Şuşada aparılan bərpa işləri ilə bağlı bəyanatına dair şərhində bildirilir.

Qeyd olunub ki, Şuşa şəhərində həyata keçirilən geniş miqyaslı quruculuq işləri çərçivəsində məscidlər, tarixi abidələr, məqbərələr, ev-muzeyləri, eləcə də Qazançı kilsəsi bərpa edilir:

"Qeyd etmək istərdik ki, bu yenidənqurma işləri Şuşanın tarixi simasının bərpa edilməsi məqsədilə, məhz orijinal memarlıq üslubuna uyğun olaraq həyata keçirilir. Eyni zamanda onu da vurğulamaq istərdik ki, Şuşadakı Qazançı kilsəsinin 200 metrliyində "İsgəndər M" raketinin qalıqlarının tapılması və yalnız xoşbəxtlikdən bu faciənin baş verməməsi onu göstərdi ki, bu ölümcül silahla Ermənistan bütün şəhəri, o cümlədən "dəyər verdiyi" kilsəni belə məhv etməyə hazırdır.

Ermənistan Xarici İşlər Nazirliyinə xatırladırıq ki, qonşu dövlətin ərazilərini onilliklər ərazində qanunsuz hərbi işğal altında saxlayan Ermənistandan fərqli olaraq, torpaqlarını azad edən Azərbaycan üçün ərazisindəki hər bir abidə, bina, daş belə dəyərlidir; onların yenidən qurulması və qorunmasına dövlət səviyyəsində əhəmiyyət verilir.

Ermənistana gəldikdə isə, bu ölkənin Azərbaycanın ərazilərində törətdiyi vəhşiliklər göz qabağındadır. Ermənistan bu ərazilərdəki mədəni və tarixi irsin xarakterini sistematik və qəsdən məhv edib və ya dəyişdirib, o cümlədən muzeylərin mülkiyyətində olan əlyazmalar və digər dəyərli eksponatlar yox edilib və yaxud onlar oğurlanaraq qara bazarlarda satışa çıxarılıb, Azərbaycanın xalçaçılıq sənətinin dəyərli nümunələri talan edilib, yüzlərlə mədəniyyət müəssisəsi, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 8 mədəniyyət və istirahət parkı, habelə Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.

Bütün bu vəhşiliklərə, beynəlxalq öhdəliklərin pozuntusuna səbəb olan bir ölkənin Azərbaycan tərəfindən öz ərazisində aparılan bərpa-quruculuq işləri ilə bağlı hər hansı şərh verməyə mənəvi, ya da hər hansı hüquqi əsası yoxdur. Bu gün Azərbaycan Ermənistanın təcavüzkar siyasətinin, törətdiyi vandallıqların ağır nəticələrini aradan qaldırır, odur ki, belə olan halda Ermənistan XİN-in əsassız iddialar deyil, üzrxahlıq bəyanatı ilə çıxış etməsi daha doğru olardı".

**İsmayıl**

# Elə bil Azərbaycanın öz dərdi yoxdur

## “Məscidlərimizdəki mollaların bir çoxu oranı qonşu ölkələrin təbliğat meydanına çeviriblər”

Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. Gündəliyə daxil edilən 11 məsələnin müzakirəsi ilə yanaşı, cari mövzularla bağlı da problemlər diqqətə çatdırılıb və təkliflər verilib.

**“Dini təhsilə dair tələblər, İlahiyyat İnstitutuna qəbul balı artırılmalıdır”**

**Millət vəkili Hikmət Babaoğlu ”Dini etiqad azadlığı haqqında” qanunun müzakirəsi zamanı təklif edib ki, dini təhsilə dair tələblər və İlahiyyat İnstitutuna qəbul balı artırılmalıdır.** Deputat bildirib ki, İlahiyyat İnstitutuna qəbul üçün bakalavr baza təhsili olan məzunlar seçilməlidir: ”Din hər şeydən əvvəl ilahiyyat və fəlsəfi amildir. Təklif edirəm ki, dini təhsilə dair tələblər artırılsın. İlahiyyat İnstitutuna qəbul balı da artırılmalıdır”.

**“Ziyalılarımız da yüksək səviyyədə öz dinimizə sahib çıxmalıdır”**



“Biz bəzən yas mərasimlərində elə cahil mollalar görürük ki, adam utanır. Hamı da məcburdur ki, yas mərasiminin sahibinə hörmət üçün sakit dayansın”









**Deputat Sabir Rüstəmxanlı isə bildirib ki, bu qanunun qəbulu millətin gələcəkdə milli birliyinin təminatında ciddi rol oynayacaq:** ”Ermənilər hər şeydən əlləri üzüləndə dini abidələrin qorunması məsələsində Azərbaycana cəbhə açırlar. Bizim dağıdılan dini abidələrimiz müzakirə edilmir. Ancaq yarısı bizim olan, ermənilərin olduğu iddia edilən kilsələrin dağıntısı dünya ictimaiyyətinin müzakirə mövzusu olur. Dünyada ikili standartlar hər zaman olub. Yaxşı söz var: ”Din qılıncdır, dövlət qındır”. Dövlət də gərək o qılıncı qında qorusun, qılınc qını kəsməsin. Biz Azərbaycanın milli maraqlarının təmin olunmasına çalışmalıyıq. Təəssüf ki, məscidlərimizdəki mollaların bir çoxu oranı qonşu ölkələrin təbliğat meydanına çeviriblər. Elə bil Azərbaycanın öz dərdi yoxdur, onlar ancaq ərəb və fars mifologiyasının təbliğatı ilə məşğul olur. Din xadimlərinin seçilməsinə ciddi yanaşılmalıdır. Ziyalılarımız da yüksək səviyyədə öz dinimizə sahib çıxmalıdır”.

**“Məscidlərin tikilməsinə mane olmaq lazım deyil”**

**Sabir Rüstəmxanlı vurğulayıb ki, bəzi kəndlərdə illərdir məscid tikməyə icazə verilmir:** ”Halbuki, insanlar məscidin tikilməsi üçün öz ciblərindən pul ayırmaq istəyirlər ki, dövlətə yük olmasın. Elə kəndlər var ki, illərdir oranın məscidi yoxdu. Məscidlərin tikilməsinə mane olmaq lazım deyil. Amma sonradan ora din xadimlərinin seçilməsinə xüsusi diqqətlə yanaşılmalıdır”.

**“Din xadimlərinin seçilməsi ciddi şəkildə həyata keçirilməlidir”**

**Millət vəkili Məlahət İbrahimqızı bildirib ki, din xadimlərinin seçilməsi ciddi şəkildə həyata keçirilməlidir, çünki onlar islam aləminin daşıyıcılarıdır:** ”Biz bəzən yas mərasimlərində elə cahil mollalar görürük ki, adam utanır. Hamı da məcburdur ki, yas mərasiminin sahibinə hörmət üçün sakit dayansın. Xahiş edirəm, din xadimləri ictimaiyyət adamları, bölgələrin tanınmış insanlarının iştirakı ilə seçilsin. Belə olarsa, əxlaqımıza zidd hadisələr də baş verməz”.

**Deputat Siyavuş Novruzov “Dini etiqad azadlığı haqqında” qanunun bəzi müddəalarının narahatlıq yarada biləcəyini bəyan edib.** O bildirib ki, ölkədə 970 dini qurum qeydiyyatdan keçib, onlardan 37-si qeyri-islam təşkilatıdır: ”Azərbaycanda 2473 məscid var. Hər bir məsciddə icmalar olmalıdır ki, orada gedən proseslərdə icma iştirak edə bilsin. İcmaların yaradılması üçün 50 nəfərin olmasını tələb kimi qoymuşuq. Biz onları ya qeydiyyata almalıyıq, ya da ümumilikdə qeydiyyata almadan, başqa forma düşünməliyik. Azərbaycanda 765 pir var. Bunların hər birində icmanın olması tələbi var. Onların qeydiyyata alınmasında problemlər yaranır. Bir sıra pirlər, o cümlədən məscidlər nə QMİ, nə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, nə də yerli icra hakimiyyəti orqanları ilə əlaqə qurur. O ərazilərdə dindən başqa məqsədlər üçün istifadə edilir”.

**“Genetik kodu mənfi olan molla da, icra başçısı da eyni hadisələri edir”**

**Milli Məclisin vitse-spikeri Fəzail İbrahimli isə ümumilikdə din xadimlərinin nöqsanlarını din sahəsi ilə bağlamağın doğru olmadığını qeyd edib:** ”Hesab edirəm ki, baş verənlər sırf dinlə bağlı deyil. Bütün mənfilikləri mollaların üzərinə atmaq doğru deyil. Genetik kodu mənfi olan molla da, icra başçısı da eyni hadisələri edir. Prezident İlham Əliyev bütün rayonun məsuliyyətini icra başçısının üzərinə qoyur, ancaq o icra başçısı hansı əməlləri edir? Bu yaxınlarda nə qədər icra başçısı həbs edildi, nə qədər baş həkim həbs edildi?”. Spiker Sahibə Qafarova isə bildirib ki, deputatların təkliflərini də nəzərə almaq lazımdır: ”Müvafiq qurumlar da dini təhsillə bağlı deputatların təkliflərinə baxsa, yaxşı olar”.

**“Vətəndaşlardan təkrar pul yığılmasına son qoyulmalıdır”**

**Millət vəkili Qüdrət Həsənquliyev isə vətəndaşların bəzi xidmətlər zamanı təkrar dövlət rüsumu ödəməsinin əleyhinə çıxıb.** Parlament üzvü qeyd edib ki, vətəndaşlardan təkrar pul yığılmasına son qoyulmalıdır: ”Azərbaycan vətəndaşları dövlətin idarəetmə xərclərini vergilərlə öz üzərinə götürüb. Vətəndaş hansısa sənəd üçün müraciət edəndə ondan rüsum ödəməsi istənilir. Niyə vətəndaş adi vəsiqə almaq üçün 40 manat ödəməlidir?! Vətəndaş üzrsüz səbəbdən vəsiqə alırsa, yəni özü itiribsə, xarab edibsə, onda rüsum ödəsin. Ancaq dəyişdirilməsinin vaxtı çatıbsa, niyə pul ödəsin?! Onsuz da vətəndaş həmin qurumu saxlamaq üçün vergi ödəyir. Bu formada vətəndaşlardan təkrar pul yığılmasına son qoyulmalıdır”.

**“Ermənilər deyir ki, Azərbaycan tərəfdən cinlər savaşıb”**

**Parlament üzvü Siyavuş Novruzov qeyd edib ki, erməni tərəfi hər gün uydurma xəbərlər tirajlayırlar:** ”Ermənilər bu yaxınlarda televiziyalarının birində keşişi efirə çıxarıb, sübut etməyə çalışırdılar ki, guya, İkinci Qarabağ savaşında Azərbaycan tərəfdən cinlər savaşıb. Deputatın sözlərinə görə, keşiş efirdə inandırmağa çalışıb ki, erməni fərarilər cinlərdən qorxub qaçıb. Görün, biz kimlərlə savaşmışıq. 10 minlərlə fərarisi olan ölkə bunu cinlərlə əlaqələndirməyə çalışır. Bu qələbəni Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu, Azərbaycan əsgəri qazanıb. Bu müharibə Azərbaycan bütün müharibə qanunlarına uyğun hərəkət edib”.

**“Sosial şəbəkələr haqqında qanun qəbul edilməlidir”**

**Deputat Razi Nurullayev əlavə edib ki, sosial şəbəkələr haqqında qanun qəbul edilməli, təhqirə, söyüşə yol verənlər cinayət məsuliyyətinə cəlb olunmalıdır:** ”Təəssüf edirəm ki, mədəniyyətsiz, savadsız, ağzını söyüşlə açıb-bağlayan bir qrup var və onlar ölkəmizdə də bir qisim insanı təsir altında saxlaya bilir, ağına-bozuna baxmadan hər kəsi təhqir edir, şəxsiyyətini alçaldır”. Deputat bildirib ki, onların ağzını bağlamaq üçün bizdə də Türkiyədə olduğu kimi, sosial şəbəkələr haqqında qanun qəbul edilməli, sosial şəbəkələrin nümayəndəsi mütləq Bakıda oturmalıdır: ”Əlavə olaraq, xaricdə oturub ölkəni, insanları, siyasətçiləri, dövlətin atributlarını, ölkənin birinci şəxsini və ailəsini ən kəskin ifadələrlə təhqir edən şəxslər barədə bütün səviyyələrdə siyasi danışıqlar aparılmalı, onların həbsi və ya ölkəyə verilməsi tələbi irəli sürülməlidir. Onların hər bir videosu cinayət xarakterlidir. Bu məsələnin qaldırılması siyasi müstəvidə - səfirliklər, XİN və dövlət səviyyəsində olmalıdır. Bizim hüquq-mühafizə orqanları cinayət işi qaldırıb, amma onların həbsi və cəzalandırılması üçün siyasi danışıqlar lazımdır”.

**“Devalvasiyaya əsas yoxdur”**

**Deputat Əli Məsimli vurğulayıb ki, hazırda manatın məzənnəsinə təsir edən iki amil müsbət istiqamətdədir.** Onun sözlərinə görə, bunlar neftin qiyməti və makroiqtisadi göstəricilərdir. Onların hər ikisi devalvasiyaya əsas olmadığını göstərir: ”Büdcədə nəzərdə tutulan neftin qiyməti ilə bu gün neftin real qiyməti manatın məzənnəsinə çox müsbət təsir edir. Neftin hazırkı qiyməti büdcədə nəzərdə tutulandan 33 faizdək yüksəkdir. Amma kommersiya bankları bu gün dolların satışına məhdudiyyət qoyub. Bunu çirkli pulların yuyulmasının qarşısını almaqla əlaqələndirirlər. Çirkli pulların yuyulmasının qarşısını almaq üçün qanunvericilikdə kifayət qədər tədbirlər var. Mərkəzi Bankdan kommersiya banklarının bu addımı ilə bağlı daha tutarlı açıqlama verilsə, yaxşı olardı”. Deputat qeyd edib ki, icbari tibbi sığorta ilə bağlı geniş planlı işlər gedir: ”Hər işin əvvəli çətindir. Bu istiqamətdə görülən işləri müsbət qiymətləndiririk. Amma transplantasiya ilə bağlı məsələlər tibbi sığortadan kənarda qalır. Bununla bağlı Nazirlər Kabineti yeni qərar versə, yaxşı olardı. Xüsusilə qaraciyər və böyrək transplantasiyası ilə bağlı məsələ icbari tibbi sığorta paketinə daxil olsa, yaxşı olardı”.

**İsmayıl Qocayev**

# Hələ orda daş-daş üstünə qoyulmayıb

## Millət vəkilləri Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlamamasını tənqid ediblər

Parlamentin dünənki iclasında bəzi deputatlar Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlamamasını tənqid ediblər. Millət vəkilləri bu qədər zaman keçməsinə rəğmən, işlərin yekunlaşmamasının və aparılan monitorinqlərlə bağlı ictimaiyyətə ətraflı məlumat verilməməsini arzuolunmaz hal adlandırıblar.



Ələt azad iqtisadi zonası ilə bağlı məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, iqtisadi zonanın gələn ilin iyul ayında fəaliyyətə başlaması gözlənilir. Deputat bildirib ki, qanun layihəsi Ələt azad iqtisadi zonasının fəaliyyətinin və bu sahədə qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanıb: "Qanuna dəyişiklik azad iqtisadi zonaya maraq göstərənlər üçün edilir".

**Deputat Razi Nurullayev deyib ki, Türkmənistan, İran və Qazaxıstanda artıq dəniz terminalları tikilib və ya sonuncu mərhələdədir:** "Azad ticarət zonalarının yaradılması yüz minlərlə iş yeri, istehsal, yüzlərlə xarici şirkətin ölkəyə gəlməsi və milyardlarla vəsait yatırması deməkdir. Əslində, azad ticarət zonaları haqqında ayrıca qanun qəbul etməliyik və azad iqtisadi zonalar da bunun əsasında işləməlidir. Neçə illərdir, Ələt azad iqtisadi zonasını işə sala bilməmişik, qanunvericiliyi də dünya standartları səviyyəsində qəbul edə bilməmişik". Deputat bildirib ki, dünyada mövcud olan azad iqtisadi zona tipindən ölkəmizdə cəmi biri işləkdir: "Bu da sənaye zona və məhəllələridir. Bu məsələləri həll etmək üçün xarici mütəxəssislərə ehtiyac var. Gətirək onlardan 200-300 nəfər, lap Azərbaycan vətəndaşlığı da verək, qoy işləsinlər. Özümüz özümüzü aldatmaqla məşğuluq. Hər kəs deyir, hər şeyi bilirəm, sonunda sıfır nəticə..."

**Millət vəkili Qüdrət Həsənquliyev də deyib ki, Ələt azad iqtisadi zonası ilə bağlı qanun 2018-ci ildə qəbul edilib:** "Lakin hələ də orda daş-daş üstünə qoyulmayıb, amma biz qanuna 3 dəfə dəyişiklik etmişik. Yeni sahələrdə islahatlar aparmaqdan ötrü xaricdən mütəxəssislər dəvət edilməlidir. Hökumətdən xahiş edək, lazımdırsa, Valeh Ələsgərova bununla bağlı kömək etsinlər. Ölkədə iqtisadi islahatların sürətləndirilməsinə böyük ehtiyac var. Bizim komitənin sədri Tahir Mirkişilinin fəaliyyətini yüksək qiymətləndirirəm. Təklif edirəm ki, özü də bu sahədə təkliflərini versin".

Deputat Tahir Kərimli də qanunun 2018-ci ildə qəbul edildiyini xatırladıb və Ələt azad iqtisadi zonasında dövlət atributlarından necə istifadə olunması ilə bağlı sual ünvanlayıb.

**Parlament üzvü Fazil Mustafa isə vurğulayıb ki, azad iqtisadi zona ilə bağlı danışıqlar postsovet dövründən başlayıb:** "Qarabağ problemi həll olunandan sonra Naxçıvanda və ya Qarabağın hansısa ərazisində azad iqtisadi zona yaradılması aktuallaşdı. Faktiki reallıq buna gətirdi. Ancaq biz bu qanunu Ələt adı ilə məhdudlaşdırdıq. Əgər istəyiriksə, bu sahədə müəyyən dərəcədə iqtisadiyyatımız dirçəlsin, sahibkarlara olan münasibəti azad iqtisadi zonaya da tətbiq etməməliyik. 2022-ci ilin iyul ayında Ələt azad iqtisadi zonasının işə düşəcəyini düşünmürəm. Monitorinqlərlə bağlı əlimizdə heç bir sənəd yoxdur. Digər tərəfdən, biz sahibkarlıqda yoxlamaların dayandırılması ilə bağlı qanun qəbul etdik. Ancaq sahibkarlardan hər gün də şikayətlər gəlir. Müxtəlif qurumlardan sahibkarlıq obyektlərinin yoxlanması yenə davam edir. Biz həqiqətən gecikmişik. Başqa ölkələr ideyanı əldə edir, reallaşdırır. 2-3 ildir, bu ideya reallaşmayıb. Bu ideya gələcəkdə burada uğursuzluğa uğrasa, işğaldan azad edilmiş regionlarda azad iqtisadi zonaların yaradılması ideyasını da indidən çökdürmüş oluruq".

**Deputat Tural Gəncəliyev diqqətə çatdırıb ki, Qarabağda da azad iqtisadi zonaların yaradılması düşünülür:** "Bunlar Qarabağda yaşayan insanların həyat şəraitini müsbət yöndə dəyişəcək. Azad iqtisadi zonanın tam təhlükəsiz şəraitdə fəaliyyət göstərməsi üçün layihədə terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün də maddə əksini tapıb".

**İsmayıl**



## Üç erməni hərbçi azad olundu

### Azərbaycan tərəfi növbəti humanist addımını atıb

**Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi humanist siyasətə uyğun olaraq daha üç erməni hərbçi Ermənistana qaytarılıb.**

Ermənistana qaytarılan şəxslər 10 noyabr 2020-ci ildə imzalanmış razılaşmadan sonra Qarabağda tərksilah edilərək tutulublar. Bunlar Robert Vardanyan, Samvel Şuxyan və Seyran Tamrazyandır.

Onlar Qarabağdakı Rusiya sülhməramlı kontingentinin komandanı, general Rüstəm Muradovun müşayiəti ilə Bakı-İrəvan aviareysi ilə yola salınıb.

Azərbaycanın Ermənistana qaytardığı 3 erməni hərbçi - Robert Vardanyan, Samvel Şuxyan və Seyran Tamrazyanı daşıyan təyyarə İrəvanın "Erebuni" hava limanına enib.

APA "Sputnik"ə istinadən xəbər verir ki, bu barədə Ermənistan Baş nazirin müavini Tiqran Avinyanın ofisi məlumat yayıb.

Erməni hərbçiləri Qarabağdakı Rusiya sülhməramlılarının komandiri Rüstəm Muradov müşayiət edib.

Məlumatda o da deyilir ki, araşdırma zamanı onların erməni hərbçilər olduğu müəyyənləşsə də, cinayətkar fəaliyyətdə, o cümlədən Azərbaycan hərbçilərinin həlak olması və yaralanması ilə nəticələnən əməliyyatlarda iştirakları təsdiqlənməyib.

Qeyd edək ki, Azərbaycan indiyə qədər də humanistlik nümayiş etdirərək xeyli mülki ermənini və hərbçini qarşı tərəfə qaytarıb.

Ermənistan isə bunun əksinə olaraq, işğaldan azad edilmiş ərazilərin mina xəritələrini Azərbaycana verməkdən imtina edir.

Bundan başqa, Ermənistan Birinci Qarabağ müharibəsində itkin düşmüş 4000-dək Azərbaycan vətəndaşı barədə informasiya verməkdən boyun qaçırır, eyni zamanda Birinci Qarabağ müharibəsində əsir götürülmüş Azərbaycan vətəndaşları barədə məlumatları da gizlədir.

## ABŞ Rusiyanın siyasətini izləyir

### Entoni Blinken: "Moskvanın ehtiyatsız və aqressiv davranışına adekvat cavab veriləcək"

**ABŞ dövlət katibi Entoni Blinken Vaşinqtonun Moskva ilə daha sabit və proqnozlaşdırılan münasibətlər qurmaq istədiyini, gərginləşməyə ehtiyac olmadığını bildirib.**

Bu barədə "Şərq" "RİA Novosti"yə istinadən xəbər verir. E.Blinkenin sözlərinə görə, ABŞ Rusiyanın hərəkətlərini və siyasətlərini yaxından izləyəcək. Moskvanın hansısa ehtiyatsız və aqressiv davranışına adekvat cavab veriləcək.

Həmçinin bildirilir ki, Bayden Putini bu yay Avropa ölkələrindən birində görüşə dəvət edib. Rusiya Xarici işlər naziri Sergey Lavrovun sözlərinə görə, Kreml bu təklifi müsbət qarşılayıb. Artıq görüş üçün tarix müzakirə olunur.

Ağ Ev liderlərin Navalnı və Ukrayna ətrafındakı vəziyyəti müzakirə edəcəyini bildirib.

**Kənan**

# "Qazançı" kilsəsinin təmir olunması böyük hadisədir

### Bu, Azərbaycanın dini və irqi fərq qoymadan bütün vətəndaşlara bərabər yanaşmasının göstəricisidir

Şuşada aparılan bərpa və yenidənqurma işlərinin qeyri-islam abidələri əhatə etməsi Azərbaycan dövlətinin və xalqının tolerantlığına əyani sübutdur. Məlumdur ki, hazırda Şuşada digər tarixi abidələrlə yanaşı alban xristian mədəniyyətinə aid "Qazançı" kilsəsi də təmir edilir.

**Bu barədə fikirlərini "Şərq"ə bildirən millət vəkili, siyasi elmlər doktoru Hikmət Babaoğlu qeyd etdi ki, Azərbaycanda vətəndaşların dini etiqad azadlığı onlara tanınan konstitusion hüquqdur:**

- Bu gün dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımız öz dini ritual və mərasimlərini azad şəkildə yerinə yetirə bilirlər. Biz Azərbaycanın multikultural ölkə olduğunu deyərkən bu zənginliyin içərisində fərqli dini və etnik mədəniyyətlərin mövcud olmasını və onların birgəyaşayış qaydası, yaxud həyat tərzi olduğunu ifadə etmiş oluruq. Ona görə də "Qazançı" kilsəsinin təmir olunması və ibadətə hazır vəziyyətə gətirilməsi ölkəmizin dini və irqi fərq qoymadan bütün vətəndaşlara bərabər yanaşmasının göstəricisidir.



*Millət vəkili qeyd etdi ki, bu, məsələnin yalnız bir tərəfidir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda mövcud olan xristian dini abidələrinin mütləq əksəriyyəti başqa bir xalqa deyil, elə bizim xristian əcdadlarımıza mənsubdur:*

- Axı biz 4-7-ci əsrlərdə xristian dinini hətta dövlət səviyyəsində qəbul etmiş xalqıq. Bu bizim qüsurumuz deyil, tam əksinə, dinə mütərəqqi yanaşmamızdır. 4-cü əsrdə islam din kimi mövcud deyildi. Ona görə də biz dini-ideologiya kimi xristianlığı mənimsəmişik. 650-ci ildən sonra isə islam dinini qəbul etdik. Hazırda adından da göründüyü kimi "Qazançı" kilsəsi xristian türklərin, yəni xristian əcdadlarımızın bizə qalan mirasıdır. Sonralar haylar Azərbaycana köçürülərkən bizim xristian abidələrimizi özünküləşdirməklə dini tariximizi də saxtalaşdırdılar. Ona görə əslində biz həm dini tolerantlıq nümunəsi kimi həmin abidələrə öz münasibətimizi onları bərpa edərək göstərir, həm də xristian mədəniyyətinə ehtiram etdiyimizin nümunəsini ortaya qoyuruq. Qoy fərqli mədəniyyətləri xor görənlərə bu bir dərs olsun.

**Məlahət Rzayeva**

# "Qaçqınkom"un adı dəyişdirilməlidir

## Xalqımız mühüm çağırışlar qarşısındadır



"Biz işğal dövrünün bütün strukturlarını qələbə zamanına uyğunlaşdırmağı bacarmalıyıq"

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin adının dəyişdirilməsini təklif edib. Deputat vurğulayıb ki, dünyada mövcud olan 80 milyondan çox köçkündən yalnız bizim xalqımıza nəsib olan qayıdış hadisəsi çoxəsrlik tariximizin ən parlaq səhifəsidir.

Ona görə də hazırda böyük miqyaslı işlər icra edən Komitənin yüz minlərlə vətəndaşımızın doğma torpaqlarımıza qayıdışında görəcəyi işlər misilsizdir: "Qələbə dövrünün qarşıya qoyduğu mühüm vəzifələrdən biri də "Qaçqınkom"un Qayıdış və Quruculuq Komitəsinə çevrilməsidir. Beləliklə, biz təkcə dövlət-hökumət institutlarını deyil, ictimai-siyasi leksikonumuzu, təhsil, mədəniyyət və ədəbiyyat sistemimizi, kitablarımızı, siyasi proqram və konsepsiyalarımızı parlaq Qələbəmizə uyğunlaşdırmalıyıq. Yeni milli kimlik, yeni qalib xalq və dövlət statusu bizdən fərqli ideologiya, yeni düşüncə və yeni hədəflər tələb edir".

**Z.Oruc "Dağlıq Qarabağın azərbaycanlı icması"nın ləğvinə də münasibət bildirib:** "Birliyin ləğvi Vətən müharibəsində qələbəmizin siyasi nəticəsidir və Birinci Qarabağ savaşının mirası ilə vidalaşmaq deməkdir. Vaxtilə ölkə daxilində və beynəlxalq aləmdə bir milyon insanın hüquqlarını qorumaq məqsədini qarşıya qoyan təşkilatın mövcud olduğu 15 ildə xidmətləri danılmazdır. Eləcə də dövlətimizin hüquqi-siyasi mövqeyinin güclənməsində, düşmən tərəfinin danışıqlarda müstəqil tərəf kimi iştirak planlarının iflasa uğradılmasında qurum əhəmiyyətli rol oynayıb. İcmanın ləğvi daha iki mesajın dünyaya verilməsidir. Birincisi, status olmayacaq. Yəni "erməni icması" anlayışı qəbul edilməyəcək. Onlar əlahiddə hüquq və güzəştlər gözləməsinlər. Digər etnik qruplar kimi Azərbaycan Konstitusiyasına tabe olub yaşaya bilərlər. Nəhayət, azərbaycanlı icmasının ayrıca ictimai-siyasi vahid kimi ləğvi Minsk qrupunun öz varlığını münaqişə və icmalar üzərindən saxlamaq istəklərinə qarşı da növbəti diplomatik cavabdır. Qoy Minsk qrupu Qarabağ əvəzinə üç ölkənin arasındakı gərginliyi - Moskva, Vaşinqton və Parisin münasibətlərində illərdir hökm sürən sanksiya müharibələrini çözsün". Komitə sədri qeyd edib ki, indi xalqımız hərbi Qələbədən sonra mühüm çağırışlar qarşısındadır: "Biz işğal dövrünün bütün strukturlarını qələbə zamanına uyğunlaşdırmağı bacarmalıyıq".

**İsmayıl**

## Gürcüstanın baş naziri bu gün Azərbaycana gəlir



**Gürcüstanın baş naziri İrakli Qaribaşvili bu gün Azərbaycana rəsmi səfər edəcək.**

Bu barədə Gürcüstan hökumətinin mətbuat xidmətindən bildirilib.

Məlumata əsasən, səfər çərçivəsində İ.Qaribaşvili Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova ilə görüş keçirəcək. Bildirilir ki, səfərdə baş naziri onun müavini, xarici işlər naziri David Zalkaliani müşayiət edəcək.

## Bayden icazə verdi

### ABŞ Azərbaycana hərbi yardım göstərəcək

**ABŞ Prezidenti Co Bayden Azərbaycana hərbi yardımın göstərilməsinə icazə verib.**

APA-nın "The Hill"ə istinadən verdiyi xəbərə görə, Bayden administrasiyası aprelin 26-da Konqresi "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin təxirə salınması barədə məlumatlandırıb.

Bildirişdə ABŞ dövlət katibi Entoni Blinken ediləcək hərbi yardımın Dağlıq Qarabağ nizamlanması ilə bağlı danışıqlara mane olmayacağını və ya Ermənistana qarşı istifadə edilməyəcəyini vurğulayıb.

"ABŞ-ın köməyi ölkəmizin beynəlxalq terrorizmə qarşı səylərini, habelə ABŞ Silahlı Qüvvələrinin və ya koalisiya tərəfdaşlarının beynəlxalq terrorizmə qarşı mübarizə əməliyyatlarına hazırlığını dəstəkləmək məqsədi daşıyır. Eyni zamanda, ABŞ-ın köməyi Azərbaycanın sərhəd təhlükəsizliyi üçün vacibdir", - deyə bildirişdə E. Blinken təsdiqləyib.

## Mərkəzi Bankın beynəlxalq ehtiyatları azalıb

### Rəsmi göstəricilər təsdiq edir ki, bank sektorunda islahatların dərinləşdirilməsinə ehtiyac var



**"2021-ci ilin birinci rübünün yekunlarında bank sektorunun bir sıra aparıcı göstəricilərində neqativ dəyişmə qeydə alınıb. Bu ilin ilk rübündə problemli kreditlərin həcmində artımlar davam edib".**

*Bu fikirləri "Şərq"ə açıqlamasında millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov səsləndirib.* O bildirib ki, vaxtı keçmiş kreditlərin həcmi ötən ilin son ayında 893,1 milyon manat idisə, bu göstərici indi 900,4 milyon, fevralda 917,5 milyon və nəhayət, mart ayının yekunlarında 918,2 milyon manata çatıb: "Bu o deməkdir ki, bir rüb ərzində bank sektorunda problemli kreditlərin həcmi 25 milyon manatdan çox artıb. Bu müddətdə depozitlərdə də azalma müşahidə edilib. Mərkəzi Bankın məlumatına görə, fiziki şəxslərin əmanətləri bu ilin mart ayında əvvəlki aya nisbətən 232 milyon manat azalıb. Belə ki, fevral ayında vətəndaşların banklardakı əmanətləri 8 milyard 379 milyon manat olsa da, bir ay sonra bu göstərici 8 milyard 147 milyon manata düşüb". **Vüqar Bayramov əlavə edib ki, Mərkəzi Bankın beynəlxalq ehtiyatları da bu ilin mart ayında əvvəlki aya nisbətən azalıb:**

"Belə ki, bu il fevral ayında 6 milyard 367 milyon dollar olan ehtiyatlar azalaraq 6 milyard 356 milyon dollara düşüb. Bu o deməkdir ki, Mərkəzi Bankın beynəlxalq ehtiyatları mart ayında əvvəlki aya nisbətən11 milyon dollar azalıb. Rəsmi göstəricilər təsdiq edir ki, bank sektorunda islahatların dərinləşdirilməsinə ehtiyac var. Mərkəzi Bank bank sektorunda rəqabəti gücləndirməklə kredit faizlərinin azalmasına, depozit və kredit siyasətləri arasındakı mütənasibliyin möhkəmləndirilməsinə nail ola bilər. Bu, passiv vəsaitlərin banklara cəlb edilməsi və kredit şərtlərinin yumşalmasına gətirib çıxarar. Eyni zamanda, valyuta bazarının liberallaşdırılması istiqamətində də tədbirlərin genişləndirilməsinə ehtiyac var".

**Aynurə Pənahqızı**

# Paşinyanın güvəndiyi çox böyük güclər var

## O, sübut etmək istəyir ki, normal seçki vasitəsi ilə rahatlıqla seçilə bilər



Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (MTX) sabiq direktoru Mikael Ambartsumyan və onun həmkarları ictimai təşkilat yaradıblar. "Qraparak" nəşrinin xəbərinə görə, təşkilata xidmətin sabiq əməkdaşları, yüksək rütbəli zabitlər üzv olacaqlar.

İctimai təşkilatın yaradıcıları Ermənistan MTX-nin direktorunun sabiq birinci müavini, general-leytenant Qrant Yepiskopyan, eks-müavini, general-leytenant Vrej Arzumanyan və polkovnik Mikael Ambartsumyandır. Təşkilatın Şurasının üzvləri sırasına, həmçinin MTX-nin digər sabiq direktoru, "Vətən" partiyasının lideri Artur Vanetsyan da daxildir. Ötən şənbə günü adı çəkilən şəxslər iclas keçiriblər. İclasın gedişi zamanı Qrant Yepiskopyan təşkilatın şurasının sədri seçilib. Ambartsumyan Yepiskopyanın təşkilatının sədri seçilməsinə də aydınlıq gətirib: "Biz hərbi subordinasiyaya hörmət edən adamlarıq. Qrant Yepiskopyan - general-leytenantdır və təbii ki, o, şuraya rəhbərlik etməlidir". Mayın 7-si təşkilat mətbuat konfransı keçirəcək və öz proqramını, fəaliyyət hədəflərini açıqlayacaq. Xatırladaq ki, bir neçə gün əvvəl sabiq prezident Serj Sarkisyanın partiyası da MTX-nin sabiq rəhbərləri ilə əməkdaşlıq etdiyini, onlarla birlikdə seçkiyə qoşulmaq istəyir. Yəni görünən odur ki, müxalifət və hökumətdən narazı yüksək rütbəli hərbçilər Paşinyana qarşı bir koalisiya yaratmağa çalışırlar.

**Ermənistanda yaşanan daxili prosesləri "Şərq"ə təhlil edən siyasi şərhçi Turan Rzayev vurğulayıb ki, seçkiqabağı bu tipli siyasi cəbhələşmənin olması gözləniləndir. Ekspertin sözlərinə görə, xüsusən qiyamçı hərbçilərlə keçmiş prezidentlərin ortaq hərəkət edəcəyi ehtimalı böyük idi:** "Nikol Paşinyan ölkədəki qərbmeyilli partiyalarla koalisiya yaratmaq yolunu tutub və bir sıra siyasi təşkilatlarla ortaq hərəkət etmək qərarı alıb. Təbii ki, belə məqamda müxalifətin ortaq axtarışına çıxması, tərkibi genişləndirmək cəhdi başadüşüləndir. Amma əsas məsələ bu cür birliyin Paşinyan qarşısında nə dərəcədə effektiv olacağı ilə bağlıdır. Əlbəttə, yeni seçiləcək parlamentdə bütün partiyaların qərbyönlü olacağını iddia etmək absurd olardı. Şübhəsiz ki, parlamentdə müxalifəti təmsil edən qüvvələr yer alacaq. Əvvəlki qədər olmasa da, "Qarabağ klanı"nın da dəstəkçiləri var. Lakin ümumi vəziyyət dəyişməyəcək. Çünki ölkədə seçkilərin nəticəsinə təsir edəcək ciddi hadisə və ya fəaliyyət yoxdur".

*Analitikə görə, ehtimallar Paşinyanın seçkini udacağı yöndədir:* "Baş nazirin tərəddüd etmədən özxoşuna istefa verməsi və yenidən seçkiyə hazırlaşması göstərir ki, güvəndiyi böyük güc var. Vaxtı ilə inqilab yolu ilə hakimiyyətə gəlsə də, indi sübut etmək istəyir ki, normal seçki vasitəsi ilə rahatlıqla seçilə bilər. Paşinyanın seçkidən qalib çıxması isə Yerevanın daha çox Qərbə istiqamətlənmiş siyasət aparacağı anlamına gəlir".

**İsmayıl Qocayev**

# Birgə fəaliyyət planı hazırlanmalıdır

## Türkiyə və Azərbaycan İranın nüvə fəaliyyətinə açıq etiraz etməlidir

XX əsrin birinci yarısında dünyanın qabaqcıl ölkələri - SSRİ, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya ciddi və məxfi şəkildə nüvə silahı yaratmağa başlamışdı. 1945-ci ildə ABŞ, 1949-cu ildə isə SSRİ bu qorxunc silaha sahib oldu. İllər keçdikcə Böyük Britaniya (1952), Fransa (1960), Çin (1964), Hindistan (1974), İsrail (1979), Pakistan (1998) və Şimali Koreya Xalq Demokratik Respublikası (2006) da nüvə dövlətinə çevrildi.



Maraqlıdır ki, hərbi cəbhəxanasında milyard dollarlara başa gəlmiş nüvə silahı saxlayan dövlətlərdən ABŞ istisna olmaqla, heç biri müharibədə həmin silahı döyüş meydanında tətbiq etməyib. Təbii olaraq, belə sual yaranır ki, nə üçün dövlətlər milyardlar xərcləyərək praktik baxımdan istifadəsiz qalacaq nüvə silahına malik olmağa can atır? Son zamanlarda dünya mediasında müntəzəm olaraq İranın da nüvə silahına sahib olma təşəbbüsünə cəhd göstərməsi məsələsi gündəmə gətirilir. ABŞ, İsrail və Səudiyyə Ərəbistanı isə İranı Orta Şərqdə ciddi təhlükə olaraq görür. Bəs, Azərbaycan?

**Sualımızı cavablandıran BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyə və Azərbaycan İranın nüvə silahına sahib olması istiqamətində fəaliyyətinə ciddi yanaşmalıdır.** Politoloq qeyd edib ki, buna qarşı fəaliyyət planı hazırlamalıdırlar: "Amerikanın İranın nüvə silahına sahib olmaması üçün fəaliyyəti bizi qane etməməlidir. Hətta buna şübhə ilə yanaşmalıyıq. Amerika buna mane olmağa başlayandan İran uranın zənginləşdirilməsini əvvəl tibbi məqsədlər üçün istifadə adı ilə 3,5 və 3,5-dən 20 faizə qədər zənginləşdirmək istədiyini qeyd edirdi. İndi zaman keçdikcə, nüvə silahı üçün lazım olan həddə qədər, yəni 90 faizə qaldırmaq təhlükəsi var. İran istəsə bunun üçün sentrofuqaların təyinatını dəyişib 2-3 aya 90 faizlik həddə çatdıra bilər. Fars rejimi ölkə daxilindəki həm siyasi, həm də demoqrafik vəziyyəti, eyni zamanda, ətraf ölkələrdə və regionlarda gedən prosesləri yaxşı bilir. Türk birliyinin yaranmasının ayaq səslərini yaxşı eşidir. Ərəb ölkələrinə qarşı olan münasibəti də göz önündədir. Çinlə 25 illiyə bağlanan əməkdaşlıq müqaviləsi, 400 milyard maddi dəstəyin kökündə İranın fars rejiminin dirçəldilməsi, Çinin də ehtiyat etdiyi türk birliyinə qarşı dayanmaq üçün qarşılıqlı fəaliyyət planı dayanır".

*A.Qasımov vurğulayıb ki, Türkiyə və Azərbaycan İranın nüvə fəaliyyətinə açıq etiraz etməlidir:* "Bunun gələcəkdə bizlərə və ərəb ölkələrinə qarşı yönələcəyi mütləq və birmənalıdır. İsraildən bu barədə kəşfiyyat məlumatları öyrənilməlidir. Doğrudur, İsrailin İranın müəyyən dairələri ilə işbirliyi etdiyini hesab edirəm. Çünki İranın Orta Şərq və Fələstində Hizbullaha dəstək verməsi onların da işinə yarayır. Bu baxımdan İsraildən İranın əsl məqsədini daha dəqiq öyrənmək olar".

**Aynurə Pənahqızı**

# "Son zəng"lə bağlı konkret bir qərar yoxdur



**Təhsil Nazirliyi bu il XI siniflər üçün "Son zəng"in necə keçiriləcəyi məsələsinə münasibət bildirib.**

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu məsələ ilə bağlı hələ ki, konkret bir qərar yoxdur: "Ölkədəki pandemiya şəraiti nəzərə alınaraq müvafiq qərar qəbul ediləcək və ictimaiyyətə açıqlanacaq".

*Qeyd edək ki, ötən il pandemiya şəraiti ilə əlaqədar tədris ilinin sonunda virtual "Son zəng" keçirilmişdi.*

# Su qıtlığı artıq özünü büruzə verir



**"Su qıtlığı artıq özünü büruzə verir".**

**Bunu "Ekspert saatı"nda Dövlət Ekoloji Ekspertiza Agentliyinin sədri Mirsalam Qənbərov deyib.**

O bildirib ki, bu gün istifadə olunan, mənbədən götürülən su ancaq içmək üçündür: "İçməklə yanaşı, su daha vacib olan məqsədlər üçün istifadə olunmalıdır. (apa) Bu sudan bağçaları suvarmaq, kilim yumaq üçün istifadə olunmamalıdır. Tullantı sular bütün yaşıllıqların suvarılmasında, avtoyuma məntəqələrində istifadə olunmalıdır".

# Bayden əvvəlki səhvini kompensasiya etdi



## "ABŞ üçün əsas məsələ Türkiyə və Azərbaycanla əməkdaşlığı qorumaqdır"

**ABŞ Prezidenti Co Baydenin administrasiyası "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin bir illik qüvvədən düşməsini təsdiqləyib.**

1992-ci ilin oktyabrında ABŞ Konqresi keçmiş sovet respublikalarına dövlət yardımının göstərilməsini tənzimləyən "Azadlığa Dəstək Aktı"nı qəbul edib. Bu qanuna edilən 907-ci düzəliş Azərbaycanın rəsmi qurumlarına Amerika hökuməti tərəfindən birbaşa yardımın göstərilməsinə qadağa qoyur.

Düzəlişin qüvvədə olması 2002-ci ildən ABŞ prezidenti tərəfindən dayandırılır.

Bir müddət "erməni soyqırımı" ifadəsini işlədən Baydenin indi belə addım atması təəccüb və maraqla qarşılanıb.

**Məsələ barədə "Şərq"ə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə burada təəccüblü bir şey yoxdur:** "2001-ci ildə ABŞ-da terror aktı olanda Azərbaycan Vaşinqtona dəstəyini ifadə etdi. Bunun ardınca ABŞ həmin düzəlişi dondurmaq barədə qərar qəbul etdi. Əlbəttə, biz qərarın tamamilə ləğv olunmasını istərdik. Lakin konqres mühafizəkarlardan, ermənipərəstlərdən ibarət olduğuna görə bunu qəbul etmədi. Prezidentin isə düzəlişi dondurmaq səlahiyyəti var və imkanlarından istifadə edir. Əslində bu, yeni addım deyil. Belə ki, Azərbaycan Əfqanıstan, İraq, Kosova əməliyyatlarında iştirak edib və ABŞ-ın xarici siyasətində yer alır".

E.Şahinoğlunun fikrincə, Bayden sözügedən addımı ilə əvvəlki səhvini kompensasiya etdi: "Məsələ ondan ibarətdir ki, aprelin 24-də "erməni soyqırımı"nı tanıyan Bayden Türkiyə və Azərbaycanla münasibətləri korlamaq istəmir. "Erməni soyqırımı" ifadəsi bir güllə idi. Bayden onu atdı və bitdi. 907-ci düzəlişin qüvvədən düşməsinin təsdiqlənməsi isə ermənilər üçün "soyuq duş" effekti yaratdı. Anladılar ki, ABŞ üçün əsas məsələ Azərbaycan və Türkiyə ilə əməkdaşlığı qorumaqdır. Ermənistan isə həmişə olduğu kimi yenə də fərqli dövlətlərin, o cümlədən ABŞ-ın əlində alətdir. Onlar nökərliyə öyrəşiblər".

**Kənan**

# Dostluq parkı gözəl ideyadır

## Seymur Verdizadə millət vəkilinin təşəbbüsünü təqdir etdi

Millət vəkili Fazil Mustafa Bakıda Azərbaycan-Türkiyə-İsrail-Pakistan dostluq parkının salınmasını təklif edib. Deputatın sözlərinə görə, İkinci Qarabağ savaşında üç dövlət Azərbaycana daha geniş miqyasda dəstək verib. Ona görə də bu dost dövlətlərə münasibət fərqli olmalıdır. Dövlət və xalq olaraq minnət borcumuzu ifadə etməyi bacarmalıyıq:



"Əfsuslar olsun ki, Azərbaycanda sosial şəbəkə seqmentində bəziləri Türkiyəyə, İsrailə, Pakistana, Əfqanıstana qarşı anti-təbliğat kampaniyası aparır. Bunun qarşısı alınmalıdır. Hesab edirəm ki, Bakıda salınan parkların birinə Azərbaycan-Türkiyə-İsrail-Pakistan dostluq parkı adı verilməlidir. Həmin parkda da bu ölkələrin bayraqları dalğalanmalıdır. Çünki bu, tarixdir, yaddaşdır".

## Türkiyə-İsrail-Pakistana dövlət və xalq olaraq minnət borcumuzu ifadə etməyi bacarmalıyıq

**Deputatın təklifini "Şərq"ə dəyərləndirən Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə millət vəkilinin təşəbbüsünü təqdirəlayiq hesab edib. JAM rəhbərinin sözlərinə görə, bu təşəbbüs özlüyündə vəfa borcumuzu xatırladır:** "44 günlük Vətən müharibəsi tariximizə qızıl hərflərlə həkk olundu. Bu təkcə müharibə tarixi deyil, həm də qürur tarixidir. Tariximizin bu dövrünü əbədiləşdirmək şərtdir. Vətən müharibəsi Azərbaycan əsgərinin şücaəti, misilsiz qəhrəmalığı sayəsində qələbə ilə başa çatdı. Daxili faktorlar bizə məlumdur, özümüz şahidi olmuşuq. Sözsüz ki, bu qələbənin qazanılmasında xarici faktorların da müəyyən rolu var. Burada söhbət Azərbaycanın haqq işini dəstəkləyən, erməni təbliğatının təsiri altına düşməyən dost dövlətlərdən gedir. Bu siyahıda Türkiyə, Pakistan və İsrail ön sırada yer alır. Çətin gündə bizi unutmayanları biz də unutmamalıyıq. Hesab edirəm ki, belə bir parkın yaradılmasına ehtiyac var. Məncə, bu istiqamətdə atılacaq növbəti bir addım isə işğaldan azad olunmuş bölgələrimizdə mərkəzi küçələrdən birinə bu dövlətlərin adını vermək olar. Məsələn, Türkiyənin Van vilayətində "Azərbaycan küçəsi" var. Niyə Cəbrayılda da "Türkiyə küçəsi" olmasın?! Şəxsən mən həmin küçədə qürurla addımlayaram".

**İsmayıl Qocayev**

# NATO-nun böyük təcrübəsi var

## Tərəfdaşlıq proqramında iştirak Azərbaycan hərbçilərinin peşəkarlığını artırır

**"1994-cü ildə mayın 4-də Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" (SNT) Proqramının üzvü olmuşdur. Ötən müddət ərzində bu proqram sayəsində Azərbaycan ilə NATO arasında əməkdaşlığın möhkəm təməlləri formalaşmışdır. Ümumilikdə bu, proqramın formalaşması SSRİ dağılandan və Varşava hərbi bloku süquta uğrayandan sonra olmuşdur. Yəni soyuq müharibədən sonrakı dövrdə keçmiş sovet respublikalarında daha çox müstəqilliyə, demokratiyaya, müxtəlif islahatlara doğru atılmış bir addım idi.**

Qeyd edim ki, ABŞ-ın eks prezidenti Bill Klinton 1994-cü ilin yanvarında NATO-nun Brüsseldə keçirilən tarixi zirvə toplantısında "Sülh Naminə Tərəfdaşlıq" Proqramı ilə bağlı təşəbbüslə çıxış etdi. Bir sıra Şərqi və Mərkəzi Avropa dövlətlərinin NATO-nun örtüyü altına keçməsi və beləliklə də, ABŞ-ın Avropada mövqelərinin möhkəmləndirilməsinə xidmət edən proqram, ümumilikdə bütün postsovet məkanını əhatə etmiş oldu".

**Bu sözləri "Şərq"ə açıqlamasında politoloq İlyas Hüseynov deyib. Politoloq vurğulayıb ki, proqramın başlıca funksiyası Şərq ölkələri ilə NATO arasında əməkdaşlığı möhkəmləndirmək, eləcə də Qərb birliyinə yeni demokratik dövlətlər cəlb etməkdir:** "Demokratik dövlətlər cəlb edilməsi, liberal dəyərlərin və demokratiyanın Avropa məkanında təzahür etməsi ilə nəticələndi. Şərqi və Mərkəzi Avropa ölkələri bu proqramda tərəfdaş olmaq üçün iştirak etmək arzularını ifadə etdilər. Daha çox bu proqram sayəsində NATO-ya üzvlük üçün ilkin kontorların formalaşması prosesi həyata keçirilirdi. NATO-ya üzv olmaq istəyən ölkələr öz növbəsində bir sıra vacib şərtlərə əməl etməli və öz üzərlərinə mühüm öhdəliklər götürməli idilər. Sənədin ilkin formasında qeyd olunurdu ki, gələcək yeni üzvlər demokratik prinsiplərə və insan hüquqlarına hörmətlə yanaşmalıdırlar. Qanunun hakimiyyətinə və münaqişələrin dinc yolla nizamlanmasına, milli sərhədlərin toxunulmazlığına sadiqliyini nümayiş etdirəcəklər. Həmin dövrdə olan mənbələrlə tanış olanda görürük ki, daha çox burada Polşa, Çexiya, Macarıstan, Slovakiya və Baltikyanı respublikalar bu proqramda iştirak etmək üçün xüsusi canfəşanlıq göstərirdilər. İştirakçı ölkələr NATO qüvvələri ilə birgə hərbi planlaşdırma, taktiki hazırlıq, manevr sahəsində işgüzar əlaqələri inkişaf etdirirdilər. Bu onlara imkan yaradırdı ki, NATO-nun tamhüquqlu üzvü olsunlar. Daha sonrakı siyasi, hərbi məsləhətləşmələrdə fəal siyasi dialoq həyata keçirilirdi. Proqramın bir nömrəli əsas hədəfi Rusiyanın mövqelərinin daha da zəifləldilməsi idi. ABŞ başda olmaqla Qərb bu proqramla Rusiyanın SSRİ süqutundan sonra qalmış bütün nüfuz dairəsini zəiflətməyə çalışırdı. Ötən müddət ərzində "Sülh Naminə Tərəfdaşlıq" Proqramı Qərb üçün Avropada sülhə, sabitliyə və inteqrasiyaya gedən yolun bir hissəsi hesab olunur. Avropada yaranmış təhlükəsizlik boşluğu NATO və digər Avroatlantik strukturlarının sürətli inteqrasiyasının mühüm bir mərhələsidir. Azərbaycan da NATO və Avroantlantik strukturlarına inteqrasiya nöqteyi-nəzərdən "Sülh Naminə Tərəfdaşlıq" Proqramında iştirak edir".



**İ.Hüseynov qeyd edib ki, bu proqramda iştirak Azərbaycana hərbi siyasi sahədə mühüm qazanclar gətirir:** "Bu proqram çərçivəsində əməkdaşlıq ölkəmizin də NATO-ya daxil olmaqla gələcəkdə Avroantlantik məkana tam inteqrasiya olunmasında mühüm rol oynayacaq. Qeyd edim ki, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı ilə əlaqədar olaraq müxtəlif ölkələrdə keçirilən layihələrdə və tədbirlərdə azərbaycanlı zabitlər, hərbi qulluqçular uğurla fəal iştirak edirlər. Və Azərbaycan rəhbərliyi də son illər ərzində NATO-nun zirvə toplantılarının işində də yüksək səviyyədə təmsil olunmuşdur. Gələcəkdə də Azərbaycan bu nüfuzlu qurumla əməkdaşlığın hərtərəfli şəkildə genişləndirilməsində maraqlıdır. Lakin "Sülh Naminə Tərəfdaşlıq" Proqramı, eləcə də NATO ilə Azərbaycan arasında münasibətləri təhlil edərkən önəmli bir məsələyə də diqqət yetirmək lazımdır. Bu ondan ibarətdir ki, Azərbaycan Qoşulmama Hərəkatının üzvüdür. Bu hərəkata üzvlük Azərbaycanı hər hansısa siyasi-hərbi bloklardan kənarda tutmağa sövq edir. Buna görə də Azərbaycan daha çox bu sahədə dünyada gedən hərbi blokların qarşıdurmasından öz milli maraqlarını güdərək daha çox kənarda durmağı düşünür. Bu da zaman keçdikcə özünü doğrultdu. Azərbaycanın çox rasional və praqmatik siyasət həyata keçirdiyinin nəticələrini biz müşahidə etdik. Azərbaycan Qoşulmama Hərəkatının hazırda sədridir və qlobal təşəbbüslərə imza atılıb. Bu hərəkatın üzvlüyü Azərbaycana həm də Vətən müharibəsində müəyyən qazanclar gətirdi. Xatırladım ki, BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qərəzli qətnamə qəbul etmək istəyirdilər. Qoşulmama Hərəkatının üzvləri Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədilər. Beləliklə, beynəlxalq ədalətin bərqərar olması istiqamətində öz töhfələrini verdilər. Lakin buna baxmayaraq, Azərbaycan öz silahlı qüvvələrinin modernləşdirilməsində və müasir standartlara cavab verən ordunun peşəkarlığının artırılmasında maraqlıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 4 saatlıq müsahibəsi zamanı da bildirmişdir ki, Azərbaycan türk ordusunun kiçik bir modelini qurmaqda maraqlıdır. Bu bizim sərhədlərimizin toxunulmazlığını və etibarlı şəkildə qorunmasını təmin edəcək. Azərbaycan həm də hər zaman öz hərbiçilərinin və vətəndaşlarının təhlükəsizliyini, sağlamlığını qorumaq istiqamətində güclü orduya sahib olmalıdır. Bu ordu həm dağlıq şəraitdə əməliyyat tapşırıqlarının yerinə yetirilməsi, həm çətin relyefdə antiterror əməliyyatlarının həyata keçirməsi istiqamətində effektiv və səmərəli şəkildə özünü göstərməlidir. Bu baxımdan NATO-nun böyük bir təcrübəsi var və "Sülh Naminə Tərəfdaşlıq" Proqramında iştirak Azərbaycanda hərbiçilərin peşəkarlığının artırılması üçün mühümdür. Həmçinin müasir texnologiyaların tətbiqi və müasir silahlanmaya daxil edilən silahlardan istifadə və digər mühüm komponentləri öz silahlı qüvvələrimizdə istifadə etmək imkanlarını qazandırır. Bu nöqteyinəzərdən "Sülh Naminə Tərəfdaşlıq" Proqramı Azərbaycan ordusunun modernləşdirilməsində mühüm rol oynayır. Bu proqram sayəsində Azərbaycan bir sıra təcrübələrə də yiyələnmişdir. Bu təcrübə də bizə Vətən müharibəsində çox böyük köməklik etdi".

**Aynurə Pənahqızı**

---

# Güc mərkəzləri ilə əlaqə qurmaq vacibdir

## "NATO ilə tərəfdaşlıq heç vaxt zərərimizə olmayıb"

Azərbaycan 1994-cü ildə mayın 4-də NATO-nun "Sülh naminə tərəfdaşlıq proqramı"na qoşulub. Həmin vaxtdan 27 il ötür. Baş verənlər keçən müddətin ölkəmiz üçün səmərəli olduğunu göstərir. 44 günlük müharibə Azərbaycanın necə güclü və qüdrətli orduya sahib olduğunu bir daha bütün dünyaya göstərdi.



**Hərbi-siyasi ekspert Həşim Səhrablı Azərbaycanın NATO ilə əlaqələri barədə "Şərq"ə danışdı:** "Hadisələrə və əməkdaşlıqlara real baxmaq lazımdır. Müttəfiq münasibətlər ayrı, tərəfdaşlıq münasibətləri ayrı. Məsələn, Azərbaycanın ən böyük beynəlxalq və xarici-daxili siyasət məsələsi olan Qarabağ problemində Türkiyə örnəyində konkret dəstək görə bilmişdik. Çünki biz bu ölkə ilə tərəfdaş deyil, müttəfiqik. NATO isə tərəfdaşımızdır, biz onun üzvü deyilik. Sadəcə fərqli proqramlarda birlikdə tərəfdaşlıq edirik. Azərbaycan-NATO əlaqələri hələ 1992-ci ildən yaranmağa başlamışdı. Ancaq həmin dövrlərdə Azərbaycanda ciddi siyasi xaos hökm sürürdü ki, bu, beynəlxalq əməkdaşlıqlarımıza ciddi zərər verirdi. İlk ciddi müqavilə isə yalnız 1994-cü il, 4 may tarixində mümkün oldu. O zaman Azərbaycan Qarabağda ciddi məğlubiyyətlər yaşamış, əraziləri işğal edilmişdi. Təsadüf olduğuna inanmıram ki, işğalı dayandıran və Ermənistan təcavüzünü durduran "Bişkek protokolu" və Atəşkəs razılaşması da məhz Azərbaycan-NATO "Sülh naminə tərəfdaşlıq proqramı" çərçivəsində əməkdaşlıq müqaviləsindən cəmi bir gün sonra baş tutdu. Çünki Moskvada yaxşı hesablamış olmalı idilər ki, Azərbaycana qarşı təcavüzü Rusiya dayandırmasa, Azərbaycan özünü müdafiə hüququnu istifadə edə bilər və tamamilə Qərbi seçə bilərdi... Ancaq NATO-nun Azərbaycan kimi tərəfdaşa düzgün qiymət vermədiyi hallar da var. Məsələn, "Sülh naminə tərəfdaşlıq proqramı"nın 8-ci maddəsində "Tərəfdaşlığın hansı fəal iştirakçısı hesab etsə ki, onun ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya təhlükəsizliyinə qarşı birbaşa qorxu mövcuddur, onda NATO tərəfdaşla məsləhətləşmə keçirəcəkdir" deyə nəzərdə tutulub. Ancaq NATO bu maddəni nəinki yerinə yetirdi, 1994-cü il oktyabrın 5-də Azərbaycandan sonra, hətta Rusiyanın NATO-ya alternativ qurduğu KTMT blokunun üzvü Ermənistan ilə eyni müqaviləni imzalandı. Digər tərəfdən, NATO-nun birinci gücü olan ABŞ hələ də Azərbaycana qarşı olan 907-ci düzəlişinə düzəliş etməyib".

**H.Səhrablının fikrincə, NATO ilə əməkdaşlıq xeyrimizədir:** "Dediyim kimi, tərəfdaş münasibətlərdən müttəfiq hərəkət gözləmək lazım deyil. Hazırda dünyamız beynəlxalq dünya sistemi çərçivəsində siyasi münasibətlərə sahibdir. Ona görə də bütün güc mərkəzləri, hətta güclü olmayan mərkəzlərlə də tərəfdaşlıq və qarşılıqlı əlaqələr qurmaq labüddür. Belə konkret dəstək almasaq da, ən azından yeni düşmənlər qazanmaq halı sıfırlanır. Belə tərəfdaşın NATO olduğunu nəzərə alarsaq və NATO-Azərbaycan münasibətlərinin tarixinə baxarsaq, görə bilirik ki, NATO ilə tərəfdaşlıq heç vaxt zərərimizə olmayıb. Əksinə, bir çox nöqtələrdə Azərbaycan NATO proqramları çərçivəsində yeni təcrübələr əldə edib. NATO-nun əsas üzvlərindən birinin Türkiyə olduğunu da unutmamalıyıq. Azərbaycan Türkiyə hərbi bazaları nəzdində ilk dəfə NATO təlimlərinə cəlb edildi. Türkiyənin belə bir güclü qurumda təmsil olunması ona əlavə güc verir ki, Vətən müharibəsi zamanı biz Türkiyənin həlledici dəstəyinin faydalarını gördük".

**Kənan Novruzov**



# Fransalı deputat “Qarabağ Azərbaycandır” dedi

## Aparıcı hiddətləndi, Ermənistanda bunt yaşandı...

“Qarabağ müharibəsi müsəlman ölkəsi olan Azərbaycanın xristianlara qarşı savaşı deyil. Bu, Azərbaycanın milli məsələsidir”

Avropa Parlamentinin fransalı üzvü, Fransanın keçmiş nəqliyyat naziri Tyeri Maryani "BFMTV" də Jan Jaq Burdinin moderatorluğu ilə baş tutan "Bourdin Direct" verilişinin qonağı olub. Bir neçə suala cavab verən T.Maryani sonda Qarabağ münaqişəsinə dair suallara beynəlxalq hüquqa söykənən tutarlı cavablar verib. Qərəzli sualları ilə diqqət çəkən aparıcı obyektiv cavabları eşidərkən hiddətini gizlədə bilməyib.

“Şərq” müsahibəni xırda ixtisarlarla təqdim edir.

*Jan Jaq Burdin:*

**- Qarabağda Azərbaycanın ermənilərə qarşı müharibə cinayətlərini qınayırsınızmı?**

*Tyeri Maryani:*

- Bunu ”müharibə cinayəti” adlandırmazdan əvvəl düşünmək lazımdır. Bu və ya digər formada kimlərinsə təxribat ”tələ”sinə düşmək olmaz. Qarabağ məsələsi ilə bağlı Beynəlxalq İstintaq Komissiyası var. Bu Komissiya bütün həqiqətləri bilir. Nəyin, necə baş verdiyindən xəbərdardır.

*Aparıcı Jan Jaq Burdin qonağın sözünü yarıda kəsir və qəzəbli halda dillənir:*

**- Azərbaycanlılar bəyan edirlər ki, erməniləri Qarabağdan iti qovan kimi qovmaq lazımdır...**

*Tyeri Maryani:*

- Bəli, bu bir az sərt bəyanatdır, amma əminəm ki...

Bu məqamda Jan Jaq Burdin yenə müdaxilə edir:

**- Siz Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləyirsiniz?**

*Tyeri Maryani:*

- Mən heç kəsi dəstəkləmirəm, hər hansı bir əlaqəm də yoxdur. 3 il Fransa-Azərbaycan dostluq qrupunun prezidenti olmuşam. 5 il Qazaxıstan, 5 il də Ukrayna ilə dostluq qrupunun rəhbəri kimi fəaliyyət göstərmişəm. Cənab Renod Müzelyenin (Tyeri Maryaninin keçmiş rəqibi, 2019-cu ilə qədər Avropa Parlamentinin fransalı üzvü) mövqeyi ilə tanışam. O da bu ölkələri yaxşı tanıyırdı. Bu barədə internetdə materiallar var, baxa bilərsiniz. 2003-cü ildə R.Müzelye və dövlət katibi Azərbaycana rəsmi səfər etdilər. Səfər zamanı imzalanan sənəddə biz nə görürük? Onu sizə təqdim edirəm. O, sənəddə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını yazır. Hər şey bu qədər aydındır.

*Jan Jaq Burdin*

**- Sizin kimi?**




*Tyeri Maryani:*

- Bəli, mən də fikrimi dəyişmirəm... R.Müzelye Bakıda olarkan aydın şəkildə bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişə ilə bağlı aydın mənzərə bundan ibarətdir. Bu, islamçıların xristianlara qarşı münaqişəsi deyil. Mən dünyanın dörd bir yanında olan xristianları müdafiə etmişəm, edirəm. Hətta buna görə cənab R.Müzelye məni tənqid etmişdi. Suriya və İraqdakı 1 milyon xristianı dəstəkləmək üçün o ölkələrə səfər etmişdim. Bu mənada hesab edirəm ki, son Qarabağ müharibəsi müsəlman ölkəsi olan Azərbaycanın xristianlara qarşı savaşı deyil. Bu, Azərbaycanın milli məsələsidir. Həqiqətən də bu bölgəyə kömək etmək istəyiriksə,




“Həqiqətən də bu bölgəyə kömək etmək istəyiriksə, tərəflər arasında dialoq mühiti formalaşdırmalıyıq”

tərəflər arasında dialoq mühiti formalaşdırmalıyıq. Ən azı 10 dəfə Cənubi Qafqaz regionunda olmuşam...

*Jan Jaq Burdin qəzəbli halda bir də təkrar edir:*

**- Erməniləri it kimi qovmaq lazımdır hə?**

**Tyeri Maryani:**

*- Xeyr, qovmaq lazım deyil, sadəcə...*

*Jan Jaq Burdin yenidən Tyeri Maryaninin sözünü yarıda kəsir:*

**- Qarabağ Azərbaycan ərazisidir?**

*Tyeri Maryani:*

- Bəli, beynəlxalq hüquqa görə Qarabağ Azərbaycan ərazisidir. Və biz bu gün o ərazidə sülhə nail olunmasına çalışmalıyıq. Qarabağ Almaniya və Fransa arasında Elzas-Lotaringiyaya bənzəyir. Azərbaycan və Ermənistan arasında dialoq mühiti yaradılmalıdır, uzun illər birgə yaşayan Azərbaycan və erməni xalqı arasında ünsiyyət bərpa edilməlidir. Qarabağdakı münaqişə ocağını söndürmək lazımdır.

*Qeyd edək ki, bu müsahibə Ermənistan cəmiyyətində bunt qaldırıb. Rəhbəri erməni olan fransızdilli sayt ”armenews.com” da ”Tyeri Maryaniyə görə Qarabağ Azərbaycan ərazisidir” başlıqlı məqalə dərc olunub. Materialda Qarabağa dair bütün həqiqətlər təhrif olunub.*

**Hazırladı: Ayyət Əhməd**

# May ayı ən uyğun zamandır

“Erməni silahlı birləşmələri Qarabağ bölgəsinin hazırda Rusiya sülhməramlılarının nəzarətində olan hissəsini tərk etməlidir". Bu barədə rusiyalı tanınmış politoloq, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib.

O bildirib ki, silahlı erməni döyüşçüləri tərəfindən hər hansı təxribat törədilərsə, bunların qarşısı Rusiya sülhməramlı qüvvələri tərəfindən alınmalıdır: ”Ermənistan silahlı qüvvələrini və ya qeyri-qanuni silahlı qüvvələri təmsil etməsindən asılı olmayaraq bütün qüvvələr tərksilah edilməli və Ermənistana göndərilməlidir. Təhlükəsizliyin əsas prinsipi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasıdır. Bunun üçün həm hərbi, həm də siyasi təzyiq metodlarından istifadə etmək lazımdır. Eyni zamanda Laçın dəhlizində yüklərin və insanların hərəkəti tənzimlənməlidir”. Korotçenko qeyd



“Bir saat ərzində Ordumuz bölgəni erməni silahlılarından təmizləyəcək. Görünür, əvvəlcə qarşıda duran siyasi məsələləri həll etmək lazımdır”

edib ki, bölgədəki gömrük prosedurları elə qurulmalıdır ki, Azərbaycanın səlahiyyətli strukturları kimin gəlib-getdiyini başa düşsün: ”Növbəti mərhələdə görüləcək iş isə erməni əhalisinin Azərbaycanın hüquq dairəsinə inteqrasiyası, azərbaycanlı qaçqınların geri qayıtması və iki icmanın birgə yaşayışını təmin etməkdir”.

“Xankəndidə anti-terror əməliyyatlarına başlamağın vaxtıdır”

Ekspert vurğulayıb ki, Ermənistanda seçki öncəsi qeyri-sabitlik yaratmaq və bundan seçki mübarizəsində kart kimi istifadə etmək üçün təxribatlar gözlənilir.

**Politoloq Əhəd Məmmədli ”Şərq”ə bildirib ki, Rusiya erməni silahlı birləşmələrini Qarabağda saxlamaqla Azərbaycana təzyiq vasitəsini əlində tutmağa çalışır. Siyasi şərhçinin qənaətincə, Moskva əlindən gələni edir ki, konflikt birdəfəlik çözülməsin:** ”Məhz buna görə Rusiya öz ordusunu ”sülhməramlı” adı ilə Qarabağa yerləşdirib. Rəsmi Bakı Ermənistana siyasi-hərbi təzyiqlərini davam etdirməlidir. Bir müddət sonra görsək ki, siyasi təzyiqlər nəticə vermir, dərhal hərbi vasitələrə keçid etməliyik. Dünyada və regionda baş verən prosesləri nəzərə alsaq, düşünürəm ki, may ayı hər cəhətdən uyğun zamandır. Xankəndidə anti-terror əməliyyatlarına başlamağın vaxtıdır. Bir saat ərzində Ordumuz bölgəni erməni silahlılarından təmizləyəcək. Görünür, əvvəlcə qarşıda duran siyasi məsələləri həll etmək lazımdır. Amma nəzərə alaq ki, siyasi məsələnin də həlli hərbdən keçir. 30 ilə yaxın həllini gözləyən münaqişə bunun ən yaxşı isbatıdır. Hərb yolu ilə Qarabağın 80 faizini düşməndən azad etdik, geriyə 20 faiz qaldı. Onu da savaşaraq təmizləməyin vaxtıdır. Əks halda prosesi mümkün qədər uzatmağa çalışacaqlar”.

**İsmayıl Qocayev**

# Sağlamlıq dinimizdə çox önəmlidir

## Kütləvi iftar süfrələrinə toplaşmaq indi günahdır



Bütün qabaqlayıcı tədbirlərə baxmayaraq, son həftələrdə yoluxma sayının yüksək həddə olması və koronavirusdan vəfat edənlərin sayının çoxalması narahatlığı artırır. Bu da təbii ki, bəzi tədbirlərin alınmasını zəruri edir. Xüsusən, Ramazan ayında xüsusi diqqət yetirməli olduğumuz mühüm məqamlardan biri də restoran və kefelərdə kütləvi iftar süfrələrinə yol verməməkdir.

> “İnsanlar, nədənsə, qarnını doldurmağa daha çox meyillidir və bu orucluqda da çoxunu iftar və yemək maraqlandırır”

Ekspertlərə görə, insanlar kütləvi toplanışlardan uzaq durmazsa, yoluxma sayı kəskin şəkildə arta bilər. Müqəddəs günlərdə dini ayinlərin kütləvi şəkildə icrasına marağın artması başadüşüləndir. Ramazan ayı da bu baxımdan insanların aktivliyi ilə seçilir. Ancaq mövcud vəziyyət insanlardan daha anlayışlı və məsuliyyətli davranmağı tələb edir. O cümlədən, bu müqəddəs ayda evlərdə və ya restoranlarda kütləvi iftar süfrələrinin açılmaması, insanların biri-birləri ilə fiziki ünsiyyətdən müvəqqəti də olsa, qaçmaları tövsiyə edilir. İslam alimləri bildirir ki, dini ayinlərin icrası insanların sağlamlıqlarını və hətta həyatlarını təhdid edəcək səviyyədə olmamalıdır. Çünki insan sağlamlığı dinimizdə çox önəmlidir. O baxımdan müsəlmanlar özlərinin və başqalarının sağlamlıqlarına təhlükə olacaq əməllərdən çəkinməlidirlər.

**İlahiyyatçı Tural İrfan ”Şərq”ə açıqlamasında vurğulayıb ki, iftar etmək üçün kütləvi toplanmağa ehtiyac yoxdur. Ekspertin sözlərinə görə, yoluxma ehtimalı varsa, toplaşmaq olmaz:** ”Operativ Qərargah adətən anormal qərarlar versə də, bu məsələdə onların tələbini doğru qəbul etmək olar. Çünki din özü də belə deyir. Əgər təhlükə ehtimalı varsa, o işdən çəkinmək vacibdir. Amma insanlar, nədənsə, qarnını doldurmağa daha çox meyillidir və bu orucluqda da çoxunu iftar və yemək maraqlandırır. Ancaq Allahın dinində belə deyil. Əvvəllər təmtəraqlı iftar süfrələri qurulur, şəkillər paylaşılırdı və kasıb, imkansız adamlar da baxıb köks ötürürdülər. Bu, riyakarlıqdır. İftar qonaqlığını çoxu göstəriş, reklam üçün edir, ad-san üçün edir. Nə fərqi var, 50 adamı evə yığmaq əvəzinə həmin adamların ailəsinə yemək-içmək göndər. Yaxud kasıblara sahur, iftar yeməyi yolla. Heç kəs xəbər tutmasa da olar. Allah-təala deyir ki, yaxşılıq edəndə, sədəqə verəndə sağ əl etdiyini sol əl bilməməlidir. Savab qazanmaq istəyən adamlar ehsanı, yaxşılığı, sədəqəni gizli etməlidir”.

İlahiyyatçı bildirib ki, indiki şəraitdə toplaşmaq özü günahdır: ”Kütləvi toplantılarda bir nəfər onlarla adamı yoluxdura bilər. Həm də iftar süfrəsində toplaşmaq dində vacib əməl deyil ki, onu təxirə salmaq qeyri-mümkün olsun. Yaxşılıq edib, savab qazanmaq istəyənlər iftar süfrəsinə toxları yığıb özlərini reklam etməkdənsə, gizli şəkildə qazilərə, şəhid ailələrinə, sosial vəziyyəti ağır olan ailələrə gizli yemək yollasınlar. Bu onların cənnəti qazanmasına kifayətdir. Əks halda bu cür reklamlarla Allaha fırıldaq gəlmək olmaz”.

**İsmayıl Qocayev**



## Hərbçilərlə bağlı yeni qanun layihəsi hazırlanır

**“Hərbi qulluqçuların statusu haqqında” yeni qanun layihəsi hazırlanır”.**

Bunu Milli Məclis deputatı Müşfiq Cəfərov parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.

O bildirib ki, qanunun 2.2-ci bəndinə dəyişikliklər edilməlidir: ”Mən təklifimi parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə şifahi olaraq bildirdim. Mənə dedilər ki, hazırda ”Hərbi qulluqçuların statusu haqqında” yeni qanun layihəsi hazırlanır”.

## Daha bir qazimiz evləndi



**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində (”ASAN Xidmət”) daha bir qazimizin nikahı qeydə alınıb.**

Bu barədə ”ASAN Xidmət” məlumat yayıb.

Nikaha daxil olan şəxslər Vətən müharibəsi iştirakçısı qazimiz Ağa Ağazadə Badam Ağazadə ilə ailə qurub.

## İstirahət günlərində də avtobuslar işləyəcək

**Bakı Nəqliyyat Agentliyi (BNA) 8 və 16 may tarixlərində avtobusların fəaliyyət göstərib-göstərməyəcəyinə aydınlıq gətirib.**

Sputnik Azərbaycan-a BNA-nın mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirib ki, Nazirlər Kabinetinin 19 aprel tarixli qərarına əsasən, 8 və 16 may rəsmi iş günləri hesab edilir. Həmin günlər rəsmi iş günləri sayıldığına görə 8 və 16 may istirahət günlərinə düşməsinə baxmayaraq həmin tarixlərdə ictimai nəqliyyat fəaliyyət göstərəcək.

## 17 nəfər vəfat edib

### Koronavirusa yoluxanların sayı 1000-dən aşağı düşdü




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 963 yeni yoluxma faktı qeydə alınıb, 2 091 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 322 761 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 296 875 nəfər müalicə olunaraq sağalıb, 4 597 nəfər vəfat edib, aktiv xəstə sayı 21 289 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 328, ötən müddət ərzində isə ümumilikdə 3 279 163 test aparılıb.*

# Qərarlar epidemioloji vəziyyət nəzərə alınaraq verilir

### Vaksin vurdurmuş insanlara güzəştlər tətbiq etmək yanlışdır



Ölkədə koronavirus əleyhinə vaksinasiya davam edir. Hazırda ölkə üzrə peyvənd olunanların ümumi sayı 1 milyon 500 mindən artıqdır. Hər iki mərhələ üzrə vaksinasiya olunanların sayında da artım müşahidə edilir. Tibbi qanunauyğun bundan ibarətdir ki, vaksinasiya əhalinin böyük hissəsini əhatə etdikcə, yoluxma sayında azalma müşahidə edilməlidir.

> “Bu o demək deyil ki, adam sağlamdır və o, başqasını yoluxdurma təhlükəsi daşımır”

Mütəxəssislər də müsbət irəliləyişə ümid edir. Lakin ”COVİD-19”-un hər dəfə ortaya çıxan yeni ştamları vaksinasiya prosesinə əngəl də yarada bilər. Belə olduğu halda karantin qaydalarının sərtləşdirilməsi gözlənilən olacaqmı? Məsələn, qardaş Türkiyədə yoluxma sayının azaldılması məqsədilə peyvənd olunmayanların ictimai yerlərdə sərbəst hərəkətinin məhdudlaşdırılması təklifləri də səslənir. Bunun insan hüquqlarına zidd olduğunu iddia edənlərsə təklifə qarşı çıxır.

Peyvəndləmə kampaniyası gözlənilən nəticəni verməzsə, belə qaydanın tətbiq edilməsi zərurətə çevrilə bilərmi?

**”Şərq”ə açıqlamasında Azərbaycan Dövlət Tibb Universitetinin professoru Adil Qeybulla qeyd etdi ki, hər şey epidemioloji vəziyyətdən asılıdır:**

- Hər bir qərar epidemioloji vəziyyət nəzərə alınmaqla verilir. Kor-koranə qərar vermək olmaz. Vaksin vurdurmaq hələ təhlükədən azad olmaq deyil. Vaksin vurdurmuş insanda koronavirusa qarşı qorunma yaranıb, yaranmayıb, bu hələ bilinmir. Vətəndaş antikor testi verməlidir, vaksindən sonra virusa qarşı onda immunitetin formalaşıb-formalaşdığı müəyyənləşməlidir. Kimsə vaksin vurdurub deyə, ona sərbəst hərəkət hüququ tanımaq, vaksin vurdurmayanların hərəkətini isə məhdudlaşdırmaq doğru yanaşma olmaz. Vaksin vurdurmuş insanlara xüsusi güzəştlər tətbiq etmək yanlışdır. Vaksin vurdurmaq o demək deyil ki, adam sağlamdır və o, başqasını yoluxdurma təhlükəsi daşımır. Ona görə də belə bir qərarın veriləcəyi mümkün görünmür.

**A.Qeybulla peyvəndləmənin yoluxmaya ciddi təsir etməli olduğunu bildirdi:**

- Dünya tibb təcrübəsində belədir ki, peyvəndləmə sürətlənirsə, əhalinin böyük qismini əhatə edirsə, xəstəlik yavaş-yavaş yoxa çıxır. Koronavirus da əbədi bizimlə qalası deyil. Sadəcə, hazırda bizi narahat edən Hindistan ştammıdır. Ümid edək ki, bu ştamm Azərbaycanda aşkarlanmayacaq.

**Məlahət Rzayeva**

# Baş nazir - prezident qarşıdurması son həddədir

## *Paşinyan Sarkisyana xəbərdarlığını etdi*



Ermənistan Prezidenti Armen Sarkisyana cinayət işi açılıb. Buna səbəb A.Sarkisyanın ikili vətəndaşlığının olması faktını gizlətməsidir. Belə ki, o, prezident seçilərkən Ermənistanla yanaşı, Böyük Britaniya vətəndaşlığı da olub.

Martın 30-da Ermənistanda 53 vəkil prezident Armen Sarkisyanın ikili vətəndaşlığının olması faktının gizlədilməsi ilə əlaqədar cinayət barədə hesabat təqdim edib. Xüsusi İstintaq Xidməti cinayət işi qaldırmaqdan imtina etdiyi üçün vəkillər apelyasiya şikayəti veriblər.

Ermənistanın Vəkillər Palatasının rəhbəri Ara Zöhrabyan Baş Prokurorluğun faktla bağlı istintaqa başladığını bildirib. "Baş Prokurorluq bizim şikayətimiz əsasında Xüsusi İstintaq Xidmətinin qərarını ləğv edib və Cinayət Məcəlləsinin 325-ci maddəsinin 1-ci hissəsi (sənədlərin saxtalaşdırılması, icrası və ya istifadəsi) üzrə işə başlayıb", - Zöhrabyan qeyd edib.

"Əgər o, seçkilərə müdaxiləyə çalışsa, gələcək siyasi karyerasının üstündən xətt çəkiləcək"

Göründüyü kimi, növbədənkənar seçkilər ərəfəsində Ermənistandakı daxili vəziyyət heç də ürəkaçan deyil.

**Politoloq Natiq Miri rəsmi İrəvandakı daxili vəziyyətlə bağlı "Şərq"ə danışdı:** "Fikrimcə, bu, Sarkisyanın Paşinyana qarşı tutduğu mövqeylə bağlıdır. Çünki bir çox məsələlərdə, o cümlədən keçmiş baş qərargah rəisinin işdən çıxarılmasında Sarkisyanla Paşinyan arasında fikir ayrılığı var idi. Prezidentin ikili vətəndaşlığı barədə məsələnin məhz indi üzə çıxması təsadüfi deyil. Məqsəd Ermənistan ictimai rəyində Sarkisyanın imicini aşağı salmaqdır. Prezident qeyri-rəsmi olsa da seçkilərə təsir edə bilər. Odur ki, Paşinyan bu addımla Sarkisyana xəbərdarlıq etdi: əgər o, seçkilərə müdaxiləyə çalışsa, gələcək siyasi karyerasının üstündən xətt çəkiləcək".

*N.Mirinin fikrincə, baş verənlər siyasi idarəetməyə təsir etməyəcək:* "Seçkilər Paşinyanın istədiyi kimi nəticələnsə, Sarkisyanla bağlı ciddi problemlər qalmayacaq. Onsuz da prezident məhdud səlahiyyətlərə məxsusdur. Konstitusiyaya görə idarəçilikdəki əsas rol baş nazirin öhdəsindədir. Yəni Sarkisyanla bağlı ciddi boşluq yaranmayacaq. Ona görə ki, Paşinyan istefa versə də, baş nazir səlahiyyətlərini hələ də icra edir".

**Kənan Novruzov**

## İdeologiya iflasa uğrayıb

"ABŞ müttəfiqlərini itirməyə davam edir"



**"Məsələnin gerçək reallığı budur, ABŞ-ın silah gücünə qlobal şüura yeritmək istədiyi avroatlantikaçılıq ideologiyası iflasa uğrayır".**

Bu sözləri siyasi analitik Tural İsmayılov deyib. O, daha ətraflı "Şərq"ə danışdı: "İngiltərə bu reallığı dərk edərək Çinlə iqtisadi sahədə böyük bir saziş imzaladı və Avropa Birliyindən nümayişkaranə şəkildə imtina etdi. Eyni zamanda Türkiyə və Rusiyanın bir sıra problemli coğrafiyalarda müttəfiqliyi, İranın proseslərdən kənar saxlanmamağı və Türkiyənin Rusiyanın S-400 raketləri ilə bağlı dəqiq mövqeyi Bayden adlı qocanın ermənilərdən oyuncaq kimi istifadəsi ilə nəticələndi. Bunlar isə dünyanın yeni reallığında heç nə ifadə etmir, ABŞ bütün dünyada müttəfiqlərini itirməyə davam edir"...

**Kənan**

## Bəzi ailələrə birdəfəlik ödəmələr ediləcək



**Rusiya Prezidenti Vladimir Putin hökumətə tapşırıq verib.**

"Şərq" "RİA Novosti"yə istinadən bildirir ki, avqust ayında altı yaşından 18 yaşınadək uşaqlı ailələrə on min rubl birdəfəlik vəsait veriləcək. Eyni zamanda əlil tələbələr üçün də müəyyən ödənişlər nəzərdə tutulub.

**Kənan**



# Məğlub ölkəni yeni böhran gözləyir

"Ermənistanda siyasi tənəzzülün növbəti mərhələsi başlanıb. Hökumətin istefası, baş nazirin seçilməməsi parlament və hakimiyyət böhranının mövcudluğundan xəbər verir. Bütövlükdə isə növbədənkənar seçkilər ərəfəsində və Nikol Paşinyanın istefası fonunda müşahidə olunan xaos vəziyyəti bir-biri ilə mübarizə aparan qüvvələr arasında siyasi qarşıdurmanın artmasını şərtləndirir".

**Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Politoloq bildirib ki, sadalananlardan əlavə, siyasi krizis, əsas etibarilə, bir neçə istiqamətdə özünü göstərir:** "Birincisi, Paşinyanın komandası daxilində dərinləşən fikir ayrılıqları fonunda gərginlik artır. Yəni bu komanda növbədənkənar seçkilərə monolit qüvvə kimi getməkdə çətinlik çəkir. İkincisi, müxalif qüvvələrin hakim komandaya qarşı resursları səfərbər etmək və vahid mövqedən çıxış etmək imkanları zəifləyib. Bu, əsasən müxaliflər arasındakı siyasi eqo savaşı və ambisiyalarla bağlıdır. Üçüncüsü, vətəndaşlar həm iqtidar düşərgəsinə, həm də müxalif qruplaşmalara inan və etimad bəsləmirlər. Mənfi emosiyalarla yüklənən seçicilər siyasi kampaniyaya etinasız və laqeyd münasibət göstərirlər. Bu, həm də məğlub ölkədəki ağır sosial-iqtisadi vəziyyətlə əlaqədardır. Dördüncüsü, Ermənistanda ekspertlər növbədənkənar seçkilərin leqallığı və legitimliyinə dair ciddi şübhələr ifadə edir. Həmçinin seçki öncəsi mühitin antidemokratik olduğunu vurğulayırlar. Beləliklə, Ermənistanda siyasi qeyri-müəyyənlik hökm sürür. Sürüşkən müstəvidə cərəyan edən proseslər məğlub ölkəni yeni kataklizmlərə doğru sürükləyir".

N.Qələndərli əlavə edib ki, növbədənkənar seçkilərin nəticələrindən asılı olmayaraq, Ermənistanda qeyri-sabitlik və tənəzzül yenə də davam edəcək.

**Aynurə Pənahqızı**

# Əhali müharibə tərəfdarı deyil

## *Ermənistanda gərgin mühit hökm sürür*





"Münaqişə dövründə Ermənistanda müşahidə olunan xaos və anarxiya bu gün də ən kəskin həddə çatıb. Bu gün faktiki bu ölkədə bütün sahələrdə ciddi tənəzzül müşahidə olunur, ölkədə gərgin mühit hökm sürür".

*Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Könül Nurullayeva bildirib. Onun sözlərinə görə, rəsmi məlumatlarda da qeyd olunduğu kimi, 1990-cı illərin əvvəlləri ilə müqayisədə əhalinin sayı xeyli azalıb:* "Ermənistan mətbuatında dərc olunan şərhlərdən də aydın olur ki, ölkədə iş yeri yoxdur, xüsusilə müharibədən sonra qazanc çox aşağı səviyyədədir. Vaxtı ilə Azərbaycanın tarixi torpaqlarını işğal altında saxlayaraq, oradakı sərvətləri talayan Ermənistan 44 günlük Vətən müharibəsindən sonra bu imkandan məhrum oldu.

İndi ölkə əhalisinin böyük hissəsi çıxış yolunu qazanc dalınca digər ölkələrə üz tutmaqda görür. Müharibənin tərəflərə təsirini araşdıran beynəlxalq jurnalistlərin təəssüratları da təsdiqləyir ki, İrəvandan kənar yaşayış məntəqələri əsl yoxsulluq nümunəsidir.

Ermənistan əhalisi gələcək üçün heç bir perspektiv görmür. Revanşist meyillər daxili auditoriyada da bədbin ab-hava yaradıb. Əhali müharibə və Azərbaycana qarşı yenidən ərazi iddialarının tərəfdarı deyil. Hərbi baxımdan daxili imkanları ilə bağlı reallığı dərk edən vətəndaşlar artıq övladlarını orduya göndərmək istəmirlər. Eyni zamanda müharibədə iştirak etmiş şəxslərə qarşı laqeyd münasibət gərginliyi bir qədər də artırır".

"44 günlük müharibədə bölgədə təklənən Ermənistana bundan sonra da əl uzadan və ya dəstək verən olmayacaq"

**Xanım parlamentari diqqətə çatdırıb ki, Ermənistanda korrupsiya da geniş vüsət alıb:** "Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra korrupsiyanın səviyyəsi nisbətən aşağı ensə də, sonrakı dövrdə yenidən artmağa başlayıb. Görünən budur ki, Ermənistanın hazırda xilası bölgədə yeni yaranmış reallıqlardan yararlanmaq və revanşist meyillərdən əl çəkməkdən keçir.

Hakimiyyətə kimin gəlməsindn asılı olmayaraq, ilk növbədə sosial-iqtisadi böhrandan xilas olmağın yollarını axtarmalı və vəziyyəti düzgün qiymətləndirməlidi.

Çünki artıq ölkənin ictimai-siyasi sferasında da analyırlar ki, 44 günlük müharibədə bölgədə təklənən Ermənistana bundan sonra da əl uzadan və ya dəstək verən olmayacaq.

Dəstək verən olsa belə, bu yalnız alət və forposta dəstək səviyyəsində olacaq ki, bu da əhalinin sosial problemlərinin həllinə zərrə qədər təsir etməyəcək".

**Yeganə Bayramova**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# Mediada dini mövzular yetərincə işıqlandırılır

## *"Bu sahədə yaza bilən jurnalistlərimiz kifayət qədərdir"*



Azərbaycanda müxtəlif dinlərə etiqad edən, fərqli inanclara sahib olan insanlar yaşayır. Ölkəmiz dini tolerantlıq modelinə görə bir çox ölkələrə örnək sayılır. Azərbaycan mediasında da dini mövzuların işıqlandırılması məsələsi kifayət qədər aktualdır. Azərbaycanda din və media mövzusu həmişə aktual olub. Bildiyimiz kimi, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan dini dəyərlərin təbliğində medianın rolu böyükdür.

Lakin vacib olan əsas məqam odur ki, özəlliklə jurnalistlər arasında dini mövzularla bağlı təbliğat aparılmalıdır. Əksər mütəxəssislərin fikrincə, bu sahədən yazan jurnalistin həm dini bilikləri, dinlərlə tanışlığı olmalıdır, həm də mövcud dini şəraiti, şərtləri bilməlidir. Çünki din həssas mövzudur. Bu səbəbdən dini mövzunu ən azı elementar bilgisi olanların yazması daha yaxşıdır. Digər tərəfdən ekspert və ilahiyyatçıları da seçərkən diqqət etmək lazımdır. Nəzərə almaq lazımdır ki, düzgün istiqamətləndirilməmiş dini yazılar cəmiyyətdə ciddi fəsadlar törədə bilər. Son illərin təcrübəsi də göstərdi ki, dünyada buna görə böyük qarmaqarışıqlıqlar, etirazlar baş verib.

Mətbuat Şurası da bu istiqamətdə dəfələrlə monitorinqlər aparıb və jurnalistləri peşə davranış qaydalarına əməl etməyə, din mövzusunda diqqətli və həssas olmağa çağırıb. Ümumiyyətlə, dinin özü həssas məsələ olduğu üçün bu barədə media orqanlarında gedən yazılara və informasiyalara da bir o qədər həssaslıqla yanaşılır. Hətta bəzən dini mövzular cəmiyyətdə əməlli-başlı ajiotaja səbəb olur. Məlumdur ki, dini yazıların əksəriyyəti müəllifdən daha çox ekspertlərin, ilahiyyatçıların fikirlərini özündə ehtiva edir. Lakin istənilən halda dini məqalələrdə təriqət və məzhəb ayrıseçkiliyi ön plana çıxır ki, bu da dindar qruplar arasında problemlər yaradır. Bir çox media nümayəndələri hesab edir ki, dini yazıların əksəriyyəti müəllifdən daha çox ekspertlərin, ilahiyyatçıların fikirlərini özündə ehtiva edir. Sirr deyil ki, bəzi qüvvələr Azərbaycanda süni şəkildə dini problemlərin olmasını tirajlamaq üçün medianın gücündən istifadə edirlər. Bir sıra mətbuat orqanları bilərəkdən və ya bilməyərəkdən bu cür təxribatların daşıyıcısına çevrilirlər. Ekspertlər hesab edir ki, dini mövzularda qərəzli yazan hansısa media nümayəndəsi öncə düşünməlidir ki, bu, elementar peşə etikasına ziddir. Üstəlik xalqın, toplumun dəyərlərinə hörmətsizlikdir. Bu halda o, haqlı olaraq kütləvi tənqid oluna bilər, hətta ona hansısa fanatiklər hücum da edə bilərlər. Bu baxımdan jurnalist həssas mövzularda ehtiyatla davranmalıdır. Məqsədi maarifləndirməkdirsə, bir neçə ilahiyyatçıdan müsahibə almalı, heç olmasa, elementar dini biliklərə sahib olmalı və müqayisələr verməlidir. Ekspertlər hesab edir ki, Azərbaycanda dini mövzuları lazımi şəkildə işıqlandırmaq üçün yetəri qədər ixtisaslaşmış jurnalistlərimiz yoxdur. Bəzi ekspertlər isə ölkəmizdə kifayət qədər bu mövzuda yazan jurnalistlərin olduğunu düşünürlər. Onların fikrincə, hətta televiziya kanallarında yayımlanan dini verilişlər də kifayət qədər insanların dini mövzuda maraqlandığı suallara cavab tapılmasına yardımçı olur. Ona görə də bəzi ekspertlər çıxış yolunu bu yöndə ixtisaslaşmış jurnalistlərin sayının artırılmasında görürlər. Bəs, problemləri aradan qaldırmaq üçün nə edilməlidir? Mövzuları seçərkən nəyə diqqət yetirilməlidir? Ümumiyyətlə, dini məqalələr sadəcə bu sahə üzrə ixtisaslaşmış, dini yaxşı bilən jurnalistlər tərəfindən yazılmalıdır, yoxsa istənilən jurnalist bu məsələyə toxuna bilər? "Şərq" olaraq suallarımızı media nümayəndələrinə ünvanladıq.

**Suallarımızı cavablandıran tanınmış jurnalist Cavid Cabbarlı "Şərq"ə açıqlamasında bu sahədə olan problemlərdən danışıb. O qeyd edib ki, əsas problem qeyri-peşəkarlıqdır:** "Xəbərdaşıyıcısının (jurnalist) tərəfsiz ola bilməməsi də ciddi problemdir. Biz mətbuatdan danışırıqsa, jurnalistin peşəkarlığı önə çəkilməlidir. Sosial mediada istənilən istifadəçi düşüncəsini yaza, deyə bilər. İstifadəçi dini mövqeyini müdafiə edərsə, normal qarşılanmalıdır. Lakin bu hal mətbuat üçün keçərli deyil. Peşəkarlıq olmadığı halda, jurnalist tərəfsizliyini də qoruya bilmirsə, dini mövzuların səviyyəsi aşağı düşür. Üçüncü əsas problem redaksiyaların sərbəst kurs (mətbuat qaydalarına sadiqlik) yürüdə bilməmələridir. Redaksiya ən azı xərclərini çıxarmaq və mövcudluğunu qorumaq üçün tərəf seçməli olur.

*"Din mövzusu hər yerdə və hər zaman həssas olub: "Çünki inanc mövzusuna insanlar emosional yanaşır və reaksiyalar da hər zaman sakit olmur"*

Mətbuatın problemlərini dini mövzular baxımından dəyərləndirsək, qeyd etdiyim üç problemdən əlavə, hökumətin dinə basqılarını da vurğulamalıyam. "Dini mövzuları seçərkən nəyə diqqət yetirilməlidir" sualına gəlincə, qeyd edim ki, dini mövzular aktuallığına və cəmiyyətə faydalı olacağına görə seçilməlidir. Əksər halda isə gündəmi izləməklə mövzular seçilir. Məsələn, Lerikdə bir dindarın qonşu qadını öldürməsi, din mövzusunu aktivləşdirir. Təəssüflər olsun ki, bəzən belə mövzular fürsətçilərin əlinə "göydən düşmüş" kimi olur. Din haqqında mənfi fikirlər tirajlamaq üçün "hücuma" keçirlər. Məncə, belə zamanlarda peşəkar və tərəfsiz jurnalist daha maraqlı araşdırmalar təqdim etməlidir. Ən azı ehtiyac yaranır. Cəmiyyətin dini araşdırmalara ehtiyacı mənbəsiz məlumatlarla ödənilərsə, ciddi fəsadlarla üzləşəcəyik. Din insan həyatının ayrılmaz hissəsidir. Qeyd edim ki, din deyəndə təkcə islamı deyil, səmavi (islam, yəhudilik və xristianlıq) və qeyri-səmavi dinlərin hamısını nəzərdə tuturam. Ona görə də dini mövzularda həssas məqamlar xüsusilə nəzərə alınmalıdır. Təhqir və aşağılayıcı ifadələrdən istifadə olunmamalı, tənqid faktlara və məntiqə əsaslanmalıdır".

*C.Cabbarlı əlavə edib ki, dini mövzuda yazmaq hər hansı bir məhdudiyyət qəbul eləmir:* "Jurnalistikanın qaydaları var, onlara əməl olunarsa, yetərlidir. Bu, ümumi mənzərədir. Lakin biz peşəkarlıqdan danışırıqsa, baxışımız bir qədər dəyişir. Dini mövzuları iki hissəyə bölmək olar: xəbər və araşdırma. Dini mövzuda hər hansı bir xəbəri çatdırmaq üçün xüsusi ixtisas lazım deyil. Çünki xəbərin çatdırılması önəmlidir. Belə məqamda əlavə bilgiyə ehtiyac yoxdur. Amma dini mövzuda araşdırma hazırlayan jurnalist, heç olmasa, dinin zəruri qaydalarını, mühüm terminləri bilməlidir, yəni ixtisaslaşmalıdır. Bu, "köhnə bazara yeni qayda gətirmək" deyil. Mədəniyyət, idman sahələrində çalışan jurnalistlər varsa, dini mövzuda jurnalist niyə ixtisaslaşmasın? Düşünürəm ki, bu sahədə kurslar təşkil olunmalı, dini mövzuda yazmaq istəyən jurnalistlər ən azı terminləri öyrənməlidirlər ki, təqdim etdikləri araşdırmalarda çaşdırıcı fikirlərə yol verməsinlər".

**"Yeni Müsavat" qəzetinin əməkdaşı, dini mövzularda yazıları ilə tanınan Kənan Rövşənoğlu isə "Şərq"ə açıqlamasında qeyd edib ki, hazırda bu sahədə xüsusi ciddi bir problemin olduğunu görmür:** "Ümumi mətbuatın problemləri kontekstində baxanda elə dini mövzuların işıqlandırılması da bu şəkildədir. Əsasən xəbər, rəsmi açıqlamalar və bir neçə ruhani-dinşünasın açıqlamalarına daha çox geniş yer verilir. Daha əvvəl bu mövzuda bir çox seminarlar, mühazirələr təşkil olunub. Hətta bir sıra dini ədəbiyyatlar buraxılıb".

K.Rövşənoğlu əlavə edib ki, din mövzusu hər yerdə və hər zaman həssas olub: "Çünki inanc mövzusuna insanlar emosional yanaşır və reaksiyalar da hər zaman sakit olmur. Buna görə də tövsiyə olunur ki, bu cür mövzuları dini mövzuya bələd olanlar işləsin. Ancaq mən o fikirdə deyiləm ki, dini mövzuda yalnız dini təhsili olan xüsusi ixtisaslaşmış şəxslər yazmalıdır. Jurnalistin işi universaldır. O, hər sahədə yaza bilər və yazmalıdır. Amma əlbəttə, dini mövzuların həssaslığını nəzərə alaraq bu mövzuda müəyyən təcrübəsi olan, elementar bilikləri olan jurnalistlər işləməlidir. Ən əsası isə həssaslığı nəzərə alıb dinlər və məzhəblər arasındakı fərq, kövrək məqamları nəzərə almalıdır. Əlbəttə, əksər vaxt jurnalist öz fikirlərini deyil, müəyyən açıqlamalar və ya mütəxəssis rəylərini yazır. Buna görə də hər dindən yazanın xüsusi dini təhsil almasına gərək yoxdur. Amma redaksiyalarda dinlə bağlı ümumi çərçivələr müəyyən olunmalıdır. Bunu da həm müxbirlər, həm də redaktorlar nəzərə almalıdır".

**Araşdırmaçı-jurnalist Rəsul Mirhəşimli isə bildirib ki, bu istiqamətdə vəziyyət qənaətbəxşdir. O hesab edir ki, mətbuatda dini mövzular yetərincə işıqlandırılır:** "Bu sahədə yaza bilən jurnalistlərimiz kifayət qədərdir. Onlar bəzi dini suallara cavab tapmaq üçün ekspertlərin mövqeyini öyrənirlər. Dini mövzuda çıxış edən ekspertlər bir çox məsələlərin aydınlaşdırılmasında öz fikirlərini söyləyirlər. Bu günləri bir çox televiziya kanallarında dini verilişlər yayımlanır. Bu verilişlər vətəndaşların dini mövzuda maraqlandığı suallara cavab tapılmasına yardımçı olur. Ramazan ayı boyunca isə dini mövzuda yazılar mətbuatda, saytlarda daha geniş şəkildə dərc edilir. İnternet kanalları da bu sıraya əlavə olunanda vəziyyətin qənaətbəxş olduğunu görmək olar".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Mən bir damla qandan ibarət deyiləm"

## Türkan Turan: "Saranı yaratmaq bütün bu acınacaqlı hallara bir növ üsyanımdır"




Gənc və istedadlı yazıçı, jurnalist Türkan Turanın yeni kitabı nəşr olunub. Müəllifin "Saranın gözləri" adlı romanı Türkiyədə çapdan çıxıb. Dedektiv üslubda yazılan əsərin baş qəhrəmanı olan jurnalist xanımın başına gələn macəralardan, onun dəfələrlə ölümlə burun-buruna gəlməsinə rəğmən, məqsədindən əl çəkməməsindən bəhs olunur. Roman çapdan çıxdığı gündən etibarən ədəbiyyat aləmində geniş müzakirələrə səbəb oldu. Oxucular arasında maraqla qarşılanan "Saranın gözləri" orijinal üslubu və həyəcanlı süjet xətti ilə seçilir. Odur ki, "Şərq" olaraq Türkan xanımla görüşdük, "Saranın gözləri" haqqında geniş müzakirə apardıq.

**- Necə oldu ki, "Saranın gözləri"ni yazmağı qərara aldınız?**

- Bu roman gerçək həyatdan qaynaqlanan təxəyyül məhsuludur. İllər əvvəl - jurnalist karyeramda orqan mafiyasını araşdırırdım. Ardınca müxtəlif hadisələr baş verdi. Beləliklə, romanın yazılması üçün zəmin yarandı.

**- Niyə məhz türk dilində?**

- Çünki kitab Türkiyədə nəşr edilib. Çap haqqı Türkiyənin nüfuzlu yayın evlərindən biri olan "Doğan Kitab"da olduğuna görə romanı da türkcə yazdım.

**- Sara onu bu işlərlə məşğul olmaqda, özünü təhlükəyə atmaqda qınayan həkimə "Mən bir jurnalistəm" deyə cavab verir. Sara kimi cəsarətli jurnalist olmaq üçün nələr yaşamaq, hansı xüsusiyyətlərə malik olmaq lazımdı?**

- Bir sıra peşələr kimi jurnalistika da belədir: bəzi xüsusiyyətlərə doğuşdan sahib olmalısan. Yəni jurnalist olunmur, doğulur. Harda, hansı şərtlərlə işləməyindən asılı olmayaraq, jurnalist üçün ilkin şərt cəsarətdir. Əgər lazımi xüsusiyyətlərə doğuşdan sahibsənsə, sonradan "daşlar yerinə oturur" və sən özünü həmin sahədə tapırsan. Təbii ki, mülayim, üzüyola şəxs də jurnalist ola bilər. Amma sən ondan cəsarət tələb edə bilməzsən, bacardığı ilə kifayətlənməli olacaqsan.

**- Sara fəaliyyəti ilə həm də ailəsinin həyatını təhlükəyə atır. Baş qəhrəmanı bu qədər inadkar edən nədir?**

- Yaşadıqları, gördüyü çətinliklər. O, həyata qarşı sərtləşib. Özünü közün üzərində ayaqyalın yeriyəcək qədər gözüqara və güclü hiss edir. Əslində hər birimizin həyatında belədir. Torpaq kimi üstümüzə basıldıqca sərtləşirik.

**- Sizi baş redaktor Ali bəy obrazını yaratmağa sövq edən nə olub?**

- Əsərin süjet xətti. Müxbir varsa, baş redaktoru da olmalı idi...Amma məncə, bir çox baş redaktorun içində müəyyən qədər Ali bəy var; əvvəlcə coşan, sonra durulan.

**- Bir jurnalist olaraq fikirləriniz maraqlıdır, Ali bəy kimi rəhbər və Sara kimi müxbir həmin redaksiyanın gələcəyi üçün nələr vəd edir?**

- Ölkəyə görə dəyişir. Məsələn, söz azadlığı məhdud olan ölkələr üçün sonu ürəkaçan olmur. Amma ümumiləşdirsək belə deyərdim; jurnalistika hər bir cəmiyyətin ana xəttidir. Hər an milyonlarla insanı məlumatlandırmaq öhdəlikləri var üzərlərində. Hər kəs

"Artıq gözünün yaşı burnunun suyuna qarışan qadınlar görmək istəmirəm"

onlardan qərəzsiz, dürüst məlumat gözləyir. Ölkənin, yeri gələndə, dünyanın gündəmini dəyişəcək xəbərlər ərsəyə gətirirlər. Əgər vəzifəsini şərəflə, ləyaqətlə yerinə yetirirlərsə, nəinki gələcək, bu gün üçün də işıqlı günlər vəd edirlər.

**- Etiraf etmək lazımdır ki, müasir Azərbaycan ədəbiyyatında cəsarətli qadın obrazları o qədər də çox deyil. Sizin romanınızda Saranın Muradla münasibətləri, aralarında olanlar, onun gözünün içinə baxaraq "Mən bir damla qandan ibarət deyiləm" deməsi Saranın bir qadın olaraq kifayət qədər güclü olduğunu göstərir. Niyə belə qadın obrazı yaratmaq istəmisiniz?**

- Təəssüf ki, XXI əsrdə, müasir çağda yaşamağımıza rəğmən, hələ də müəyyən feodal düşüncələrdən xilas ola bilməmişik. Bunlardan ən başlıcası isə qadın azadlığı ilə bağlıdır. İstər Azərbaycanda, istərsə də digər Şərq ölkələrində hər gün minlərlə qadın dəhşətli işgəncələrə məruz qalır, döyülür, öldürülür. Güclü və güc əldə etmək istəyən qadınlar həmişə əks tərəfi qorxudur. Təbii ki, güclü kişilərin belə problemi yoxdur. Hətta güclü kişilərdən doğulan nəhəng qadınlar var. Məsələn, bir çox kitablarda, filmlərdə, seriallarda o qədər əzilmiş, aşağılanmış qadın obrazı təqdim edilir ki, bir nöqtədən sonra bu adiləşir. Saranı yaratmaq bütün bu acınacaqlı hallara bir növ üsyanımdır. Artıq gözünün yaşı burnunun suyuna qarışan qadınlar görmək istəmirəm. Dünyanın güclü qadınlara ehtiyacı var.

**- Saranın sevdikləri olmasaydı, həyatı necə dəyişərdi?**

- Bəlkə də, daha böyük təhlükələrə gedərdi. Hərçənd onsuz da onun hər günü təhlükə ilə keçir. Çünki Saranın inandıqları ailə-məişət mövzusundan daha böyükdür. Qəhrəmanımın uğrunda savaşdığı təkcə yaşadığı ölkəni deyil, dünyanı maraqlandıran hadisələrdir. Ona görə də addımlarını hesablayaraq atmır, içindəki güc onu mübarizəyə maqnit kimi çəkir.

**- Elə isə belə güclü qadını Oğuza bağlayan nədir?**

- Güc. Çünki güc gücü çəkir. Oğuz da güc sahibidir. Oğuz standart xarakterli bir kişi olsaydı, təbii ki, Saranın diqqətini çəkməzdi. Güclü qadın robot demək deyil. Hər bir güclü qadının özündən böyük gücə ehtiyacı olur.

**- Sara hər dəfə anası ilə görüşəndə "Bu dəfə də ölmədim" deyir. Bəs onun gələcək taleyi necə olacaq?**

- Gələcəyi daha möhtəşəm olacaq. Fikrimcə, "Saranın gözləri"nin ikinci hissəsi də gələ bilər. Əslində ideyası beynimdə hazırdır. Saranın "Bu gün də ölmədim, ana" deməsinin əsas səbəbi dəfələrlə ölümlə burun-buruna gəlməsinə baxmayaraq, hər dəfə həyatda qalmağı bacarmasıdır.

**- Bəs daim ölümün isti nəfəsini hiss edən Sara üçün ölüm nədir?**

- Sara çox yaxşı bilir ki, onun üçün yaşamaq fürsətlərlə doludur, ölüm isə hər şeyin sonudur. Sara üçün ölüm mübarizəsinin yarımçıq qalacağı qorxusudur. Çünki onun məqsədi var; hörümçək toru kimi dünyaya yayılan mafiyanı çökdürmək. Doğrudur, qarşısındakı nəhəng şəbəkədir, ancaq Sara özünü onlarla mübarizə aparacaq gücdə hiss edir və romandan da göründüyü kimi müəyyən qədər nəticə əldə edir.

**- Məşhur Kolumbiya yazıçısı Qabriel Qarsia Markes "Hər günü son gününüz kimi yaşayın, bir gün haqlı çıxacaqsınız" deyib. Sara bu fikrə inanır?**

- O, hər gün bir müəmmanın üstünə gedir və evə sağ qayıdıb- qayıtmayacağını bilmir. Deməli, hər gününü son günü kimi yaşayır və bu fikrə inanır. "Ölsəm də inandığım, amalım uğrunda ölüm" deyir. Eyni ilə qarışqa kimi...Belə ki, bir dəfə uzaq diyarda qarışqanın sevgilisi xəstələnir. Özünü sevgilisinə çatdırmaq üçün tez yola düşür. Yolda qarşısına çıxanlar "Ay yazıq, ora çatana qədər iş işdən keçmiş olacaq, sən də yarıyolda öləcəksən" deyirlər. Qarışqa cavab verir: "Mən də bilirəm ki, çatmayacam. Amma heç olmasa, qoy, sevdiyimə gedən yolda ölüm". Saranın mübarizəsi çox sevdiyim bu Şərq pritçasına bənzəyir. Onun üçün yolun sonunda onu nə gözlədiyi deyil, çıxdığı yol maraqlıdır. Ümumiyyətlə, Saranın ən cazibədar xüsusiyyəti baş verən hər şeyə maraqla yanaşmasıdır. Araşdırmaq məhz düşünən beyinə məxsusdur. Düşünməyən beyin ona təqdim edilənlə kifayətlənir, düşünən isə sorğulayır, araşdırır, daha yaxşısını, daha artığını istəyir, axtarır. Ona görə də hər yerdə Sara obrazı kimi zəki, güclü və cəsarətli qadınlar görmək istəyirəm.

**- Ağıllı, güclü və cəsarətlidirsə, deməli, həm də təhlükəlidir?**

- Zəif insanlar üçün güclü qadınlar həmişə təhlükəli görünür. Sara da, həmçinin. Bu gənc qız roman boyu heyrətləndirir, həyəcanlandırır, bəzən qıcıqlandırır, amma həm də heyran etməyi bacarır. Romandan da bəlli olduğu kimi, Sara düşdüyü yeri yandıran bir oddur. Dinclik nədir bilmir, hara gedirsə, bir fırtına qoparır. Amma bütün hallarda cazibəsini qoruyur.

**- Sara daha cəsarətlidir, yoxsa Türkan Turan?**

- *(Gülür)*. Çətin sualdır. Yəqin ki, Sara. Çünki obrazlar həmişə daha ideal olur. Personajları istədiyimiz qədər mükəmməlləşdirə və gizlinlərini göstərəcək qədər cəsarətli ola bilirik. Bəzən bir roman qəhrəmanına vurulur və onu real həyatda axtarırıq. Lakin tapmırıq. Çünki real həyatla roman fərqlidir. Real həyatın dalanları, tinləri, döngələri daha çoxdur.

**Kənan Novruzov**

---

## Şəhidlərin təhqir olunması ilə bağlı cinayət məsuliyyəti müəyyən olunmalıdır

### Vəkil də millət vəkilinin təklifini dəstəklədi



**Parlamentin dünənki iclasında deputat Bəhruz Məhərrəmov şəhidlərin təhqir edilməsini pisləyib. Millət vəkili Cinayət Məcəlləsinə şəhidlərlə bağlı maddənin əlavə olunmasını təklif edib.**

O bildirib ki, şəhidlərin təhqir olunması cinayət sayılmalıdır: "Buna görə də Cinayət Məcəlləsinə şəhidlərin təhqir olunmasının cinayət məsuliyyəti yaratmasına dair maddə əlavə edilməlidir". Deputatın təklifini müsbət dəyərləndirən tanınmış hüquqşünas, vəkil Adəm Məmmədov "Şərq"ə təəssüflə bildirib ki, bəziləri şəhidlərimizə dil uzadıb, xoşagəlməz ifadələr səsləndirirlər: "Məsələn, bu günlərdə şəhidimiz Xudayar Yusifzadə haqqında xoş olmayan fikirlər söyləndi. Daha sonra isə onu təhqir edən şəxs döyüldü. Düzdür, hüquqi dövlətdə yaşayırıq, lakin hər bir halda xalqın heysiyyətini başa düşmək lazımdır. Türkiyədə belə bir hal yaşansaydı, o adamı çox pis linç edərdilər. Təbii ki, bunu qəbul etmirik. Amma elə etmək lazımdır ki, məsələ qanunla ciddi formada tənzimlənsin və insanlar məsuliyyətlərini dərk etsinlər".

**Vəkilin sözlərinə görə, cılız və özünə hörmət qoymayan şəxslər feysbuk və digər sosial şəbəkələrdə bu cür addım atmaqdan çəkinməlidirlər:** "Həmin şəxslər birmənalı şəkildə dərk etməlidirlər ki, məsuliyyətə cəlb ediləcəklər. Şəhidlərimiz çox həssas yerimizdir, əhalinin hissi ilə oynamaq olmaz. Ümumiyyətlə, şəhidlərə qarşı tərbiyəsizlik edənlərin psixologiyasında problem var. Heç olmasa, qohum-əqrəbaları başa salmalıdır ki, ağlını başına toplasın. Mən özüm də şəhid ailəsindənəm, atam şəhid olub. Ona görə də deputatın səsləndirdiyi təklif çox düzgündür. O şəxsi qanun qarşısında elə cəzalandırmaq lazımdır ki, bir də belə işə əl atmasın. Cinayət Məcəlləsində vəzifəli şəxslərin şərəf və ləyaqətinin qorunmasına dair bir neçə maddə var. Belə maddə şəhidlərimiz üçün də olmalı, onların adı əbədiləşdirilməli və neqativ hərəkətlərin qarşısı alınmalıdır".

**Yeganə**

---

## AZAL-ın başlatdığı kampaniya normaldır

### Natiq Cəfərli: "Uçuş yeməkləri ilə bağlı qiymət siyasətini də istədiyi kimi tənzimləyə bilər"



**"Deməli, AZAL uçuş yeməyini 66 manata satır, çatdırılma ilə birlikdə (+15AZN) isə 81 manata".**

Bu sözləri siyasi analitik Turab Rzayev deyib. Onun bu fikirləri ciddi müzakirələrə səbəb olub. Bəzi sosial şəbəkə istifadəçisi AZAL-ın sözügedən addımını kəskin qınayıblar.

**Məsələ barədə "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərlinin fikrincə isə burada tənqidi məqam yoxdur:** "Analoji təcrübə dünyanın bir çox ölkələrində var. Hətta bir müddət əvvəl Almaniyada maraqlı kampaniya başlanmışdı: təyyarəyə minə bilməyənlər sosial şəbəkələrdə uçuş yeməkləri üçün darıxdıqlarını deyirdilər. Həm də kimsə məcbur edilmir.

Bu, könüllüdür. Əslində AZAL-ın problemləri, neqativləri kifayət qədər çoxdur. İnhisarçılıq, biletlərin bahalılığı, rəqabətli mühitin yaradılmaması və s. bu qəbildəndir. Və bu qurumu məndən çox tənqid edən yoxdur.

Lakin sözügedən məsələyə irad bildirmək ədalətsizlik olar. Son bir ildə reyslər 65-70 faiz azalıb. Deməli, əlavə gəlir əldə etmək məqsədilə AZAL-ın belə bir kampaniya başlatması normaldır.

Uçuş yeməkləri ilə bağlı qiymət siyasətini də istədiyi kimi tənzimləyə bilər. Sadəcə dövlət qurumu olduğuna görə qazancla bağlı ictimaiyyətə şəffaf məlumat verməlidir.

Dediyim kimi, vergilər normal qaydada ödəniləcəyi təqdirdə qiymət siyasətini istədiyi kimi müəyyənləşdirə bilər. Vətəndaşlardan kim istəsə, arzulasa, bu təklifdən yararlansın.

AZAL isə kampaniyanın özünü doğrultmayacağını görsə, bundan imtina edəcək".

**Kənan Novruzov**

# Həcc ziyarətinə sənəd qəbulu hələ elan edilməyib

## QMİ qaranlıq məqamlara aydınlıq gətirməlidir

Bu il Səudiyyə Ərəbistanına Həcc ziyarəti yalnız koronavirus əleyhinə tibbi sığorta təqdim etməklə mümkün olacaq. Bu barədə Səudiyyə Ərəbistanı hökumətinin qərarında deyilir. Tibbi sığorta şəxsin xəstələnəcəyi təqdirdə koronavirusdan müalicə, karantinə alınma, eləcə də zəruri hallarda vətənə yola salınma xərclərini qarşılamalıdır. Qeyd edək ki, ötən həftə sonu Səudiyyə Ərəbistanı sərhədləri açdığını və öz vətəndaşlarının səyahət məhdudiyyətlərini aradan qaldırdığını elan etmişdi.

Xatırladaq ki, bu il Həcc ziyarətinə iyulun ikinci yarısından etibarən başlanacaq. Səudiyyə Ərəbistanı səyahət qadağalarının qaldırıldığını da bir neçə gün öncə elan edib. Amma bu şərtlə ki, ölkəyə gələn xarici vətəndaşlar 14 gün karantində qalmalıdır. Eyni şərt Həcc ziyarəti zamanı da keçərli olacaqsa, zəvvarlar üçün xeyli çətinlik yaranacaq. Çünki zəvvarlar konkret günlər ərzində Həcc əməllərini yerinə yetirir və kiminsə 14 gün əvvəldən Səudiyyə Ərəbistanına gedib karantin müddətini orada keçirəcəyini təsəvvür etmək mümkün deyil. Bu, külli miqdarda xərc tələb edir. Məsələn, Azərbaycan zəvvarları üçün ötən illərdə Həcc ziyarətinin müddəti 2 həftədən artıq olmurdu. Hətta dünya zəvvarları arasında Məkkə və Mədinədə ən az qalan məhz bizim vətəndaşlarımız olsa da, ziyarət xərcləri kifayət qədər yüksək məbləğdə təyin edilirdi. Ümumiyyətlə, hansısa zəvvarın 14 gününü karantində keçirəcəyi absurd səslənir. Tibbi sığorta məsələsi də hələ ki, müəmmalıdır. Məlumdur ki, Azərbaycanda aprelin 1-dən etibarən ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Amma SƏ hökumətinin açıqlamasında məhz koronavirusa görə tibbi sığortadan söhbət gedir. Yəni koronavirusa görə tibbi sığorta başqadır, ümumi icbari tibbi sığorta başqa? Ziyarət üçün sənəd təqdim etmək istəyənlər koronavirusa görə tibbi sığorta məbləğini hara, hansı quruma ödəyəcək və onun məbləği necə müəyyənləşəcək? Kifayət qədər qaranlıq qalan məqamlar, açıq suallar var.



Həccə getmək üçün koronavirus sığortası tələb olunacaq

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən ilahiyyatçı Hacı Atif İsmayılov qeyd etdi ki, bütün bu məsələlərə Qafqaz Müsəlmanları İdarəsi aydınlıq gətirməlidir:**

- Yəqin ki, QMİ bu məsələlərlə bağlı bir açıqlama verəcək. Mümkündür ki, koronavirus əleyhinə tibbi sığorta xərcləri ümumi Həcc ziyarəti qiymətlərinə daxil edilsin, "Həcc paketi"ndə yer alsın. Belə olduğu təqdirdə koronavirus əleyhinə tibbi sığorta xərcləri, əlbəttə, Həcc ziyarətində qiymət artımına təsir göstərəcək. Əvvəllər də Həcc ziyarəti zamanı xəstələnən, dünyasını dəyişənlər olduqda, bəzən bu insanların müalicəsi üçün vəsait tələb olunurdu, dünyasını dəyişmiş zəvvarların cənazələrinin ölkələrinə göndərilməsində məhz maddi baxımdan çətinlik yaranırdı. Yəqin pandemiyanın bitmədiyi, hazırda dünyada koronavirusa yoluxma və ölüm hallarının hələ də yüksək olması amilləri nəzərə alınaraq ortaya çıxa biləcək əlavə xərclərin zəvvarların özü tərəfindən ödənilməsini istəyirlər. Amma düşünürəm ki, bu şərt yoluxma və ölüm hallarının yüksək olduğu ölkələrə aid ediləcək. Hansı ölkələrdəki yoluxma və ölüm sayı kritik həddə deyil, bu qayda tətbiq edilməyə bilər. Belə ölkələrin zəvvarlarının təkcə koronavirus testindən keçməyə aid sənəd təqdim etməsi kifayət edə bilər. Yəqin ki, koronavirus əleyhinə tibbi sığorta tələbi yalnız Həcc mövsümünə aid ediləcək. Çünki Azərbaycan da daxil, əksər ölkələrdə ümumi tibbi sığorta tətbiq edilir. Yəni koronavirus əleyhinə tibbi sığorta mövsümi xarakterli qərardır.

*H.A.İsmayılov qeyd etdi ki, Həcc ziyarətinə sənəd qəbulu hələ ki, elan edilməyib. Sənəd qəbulu elan edilərsə, bu məsələlərə də aydınlıq gətiriləcək:*

- May ayı ərzində Ümrə ziyarəti olmalıdır. Ümrə ziyarəti üçün əsas şərt koronavirus əleyhinə peyvənd vurdurmaqdır. Bu da hələ məlum deyil ki, Ümrə ziyarəti təşkil olunacaq, ya yox. Həcc ziyarətinin özü də böyük sual altındadır.

**Məlahət Rzayeva**



# DİM deputatın ittihamlarını qəbul etmir

## İmtahan sualları iştirakçıların hazırlıq səviyyəsinə uyğun hazırlanıb

Dünən Milli Məclisin iclasında millət vəkili Azər Badamov Dövlət İmtahan Mərkəzinin (DİM) buraxılış imtahanları üçün tərtib etdiyi sualların çətin olmasından danışıb. Deputat qeyd edib ki, bəzi suallar ali məktəbə qəbul imtahanları səviyyəsində qoyulur.

"Təklif edirəm ki, buraxılış imtahanları yenidən keçirilsin və ya qiymətləndirmə sistemində fərqli yanaşma tətbiq edilsin".

**Millət vəkilinin səsləndirdiyi iddialarla bağlı "Şərq"ə danışan DİM-in mətbuat xidmətinin rəisi Xanlar Xanlarzadə bildirib ki, mərkəz tərəfindən pandemiya şəraitinin yaratdığı çətinliklər nəzərə alınaraq imtahan proqramları bu il daha da sadələşdirilib:** "DİM tərəfindən keçirilən buraxılış (qəbul) imtahanlarının məzmunu müəyyən edilərkən istinad etdiyi metodiki çərçivə çox aydın və birmənalıdır: Bunlar hazırda ölkəmizdə qüvvədə olan təhsil proqramı, dərsliklər və onların əsasında hazırlanmış qəbul proqramlarıdır. Builki imtahan proqramları sadələşdirilib. Hər kəs "Abituriyent" jurnalının müvafiq buraxılışlarına baxaraq bunun şahidi ola bilər. 2021-ci ildə keçirilən buraxılış imtahanlarında istifadə edilən tapşırıqların da hamısı əvvəlcədən dərc olunan imtahan proqramlarına əsaslanır. Tapşırıqların mürəkkəblik dərəcəsinə gəldikdə isə ümumi qayda belədir ki, hər bir imtahanda müxtəlif hazırlıq səviyyəsinə malik şagirdləri bir-birindən fərqləndirmək üçün bütün fənlər üzrə test blokunda asan, orta və çətin test tapşırıqlarından istifadə edilir. Bütün istiqamətlər üzrə keçirilən imtahanlarda bu bölgü dəyişmir.

80 mindən artıq şagird bu imtahanlarda iştirak edib. Hələlik nəticələr də bəlli deyil və materialların emalı prosesi üzərində iş gedir. Dünən hansı imtahan nəticələrinin nə vaxt elan olunacağı barədə məlumat da vermişik".

*X.Xanlarzadə qeyd edib ki, imtahan nəticələrinin elmi-statistik təhlili aparılmadan onun mürəkkəbliyi haqqında hər hansı fikir söyləmək doğru deyil:* "İmtahanlardan sonra bəzən onun çətinliyi haqqında fikirlərə rast gəlinir. Bu da gözləniləndir. İmtahanlarda müxtəlif hazırlıq səviyyələrinə malik uşaqlar iştirak edirlər.

Lakin nəzərə almaq lazımdır ki, hər il DİM tərəfindən imtahan nəticələrinin elmi-statistik təhlili aparılır və dərc olunaraq ictimaiyyətə təqdim olunur. Bu elmi-riyazi təhlillər göstərir ki, imtahanlarda istifadə olunan test tapşırıqlarının mürəkkəblik dərəcəsi iştirakçıların bilik səviyyələrinə uyğundur. Hətta pandemiya olmasına baxmayaraq ötən ilin imtahan nəticələrini daha əvvəlki illərin nəticələri ilə müqayisə etdikdə belə görürük ki, nəticələr arasında ciddi fərq yoxdur. Bu fərq məqbul statistik xəta payı çərçivəsindən kənara çıxmayıb.

Bu onu göstərir ki, DİM tərəfindən imtahanlarda təqdim olunan tapşırıqlar iştirakçıların hazırlıq səviyyələrinə uyğun formada hazırlanır".

**Yeganə Bayramova**

# Hər uşağa Polad adını vermək düzgün deyil

Bu ilin ilk 4 ayında doğumu qeydə alınmış uşaqlara Vətən müharibəsi iştirakçılarının şərəfinə qoyulan ən populyar iki ad məlum olub. Uşaqlara Polad və Xudayar adlarının verilməsi kəskin artıb.



"Çünki dünyaya gələn bu uşaqlar içində gələcəkdə narkomanı da ola bilər"

Cari ilin yanvar-aprel aylarında yeni doğulan 99 körpəyə Polad adı verilib. Uşaqlara Polad adının verilməsi 2020-ci ildə və cari ilin dörd ayında əvvəlki illərlə müqayisədə kəskin artıb.

Yəni ölkəmizdə Polad adı ən çox 2020-ci il ərzində məşhurlaşıb. 2018-ci ildə 55 uşağa, 2019-cu ildə 53 uşağa Polad adı verilmişdisə, ötən il Polad adı verilən uşaqların sayı 193 olub. Bununla yanaşı, bu ilin dörd ayında 18 uşağa Xudayar adı verilib.

Bu ad ötən il ərzində isə cəmi 3 nəfərə qoyulub. 2018-ci ildə cəmi bir uşağa Xudayar adı verilmişdisə, 2019-cu ildə ölkədə yeni doğulan uşağa bu adın verilməsi qeydə alınmayıb.

**Uşaqlara ad verməyin adi bir məsələ olmadığını söyləyən tanınmış dilçi-alim, professor Adil Babayevin "Şərq"ə açıqlamasına görə, gərək insana elə ad qoyulsun ki, uşaq böyüyəndə utanmasın:** "Məsələn, bir xanıma Paket adını qoymuşdular. Həsənova Paket. Bu, düzgün deyil. Uşağa ad qoyanda onun gələcəyini düşünmək lazımdır. Polad Həşimov bütün Azərbaycanın ürəyini yaraladı. Amma hər bir uşağa da Polad adının verilməsi düzgün deyil. Çünki dünyaya gələn bu uşaqlar içində gələcəkdə narkomanı da ola bilər. Allah bütün şəhidlərimizə rəhmət etsin. Hesab edirəm ki, şəhidlərimizin yaxın qohumları onların adını yeni dünyaya gələn körpələrinə qoya bilər".

*A.Babayevin qənaətincə, respublikanın hər yerində Polad və Xudayar adının təkrar-təkrar qoyulması yaxşı hal deyil:* "Çünki həmin adlar qoyulan körpələr gələcəkdə düz yolun yolçusu olmaya bilərlər və şəhidlərimizə hörmətsizlik olar. Məsələn, Polad Həşimovun adı bir uşağa qoyulur və onun adı gələcəkdə istintaq orqanlarında çəkiləcək. Ona görə də belə adların kütləvi halda qoyulması düzgün deyil".

**Yeganə Bayramova**

# "Kaş anasının yasına gəlməzdi"







## Aslanın ölümü sənət dostlarını qəhərə boğdu

Dünən avtomobil qəzasında dünyasını dəyişən Aslan Hüseynovun qohumu "Bizimləsən" verilişinə canlı bağlanıb. Özünü mərhumun bacısının yaxını kimi tanıdan xanım olayın təfərrüatlarından bəhs edib.

*"Şərq" xəbər verir ki, o, sənətçinin səhərə yaxın saat 5 radələrində qəzaya düşdüyünü söyləyib:*

"Avtomobildə tək olub. Maşın qəzada adı keçən Məhəmməd Vəliyevin adınadır. Ondan etibarnamə ilə satın almışdı. Ona görə hadisədə adı hallanır. İndi nəşini Gəncəyə aparırlar, anasının yanında dəfn olunacaq. Yol polisi tanışımızdan xahiş elədim, o mənə maşının fotosunu, həm də Məhəmməd Vəliyevin sənədinin kopyasını göndərdi. Dedi ki, orada Aslan adlı şəxs ölməyib, vəfat edənin adı belədir. Qayıtdım ki, necə ola bilər axı, Aslanın maşınıdır. Dedi ki, yəqin Aslan yaralıdır, ölən sürücüdür. Biz də Daxili İşlər Nazirliyinə zəng etdik ki, məlumat öyrənək. Cəsədi götürəndə Aslan olduğunu bilməyiblər, adı qeyd olunmayıb. Müstəntiq araşdırmasından sonra durum anlaşılıb. Günorta saat 12-1 radələrində bildik ki, morqdakı Aslandır. Hamı - bacıları, İbrahim Borçalı, sənət dostları orada idi. Deyilənə görə, xəstəxanaya çatdırana qədər dünyasını dəyişib".

**Sənət dünyası qəfil acı xəbərlə dərindən sarsılıb. Müğənni Aslan Hüseynov 55 yaşında avtomobil qəzasında dünyasını dəyişib. Bu ölüm hadisəsi onun yaxınlarını, sənət dostlarını üzüb. Şou əhli sosial şəbəkələrdə kədərlərini dilə gətiriblər.**

"Şərq" xəbər verir ki, müğənni Roza Zərgərli mərhumla videosunu paylaşaraq bunları yazıb: "Ölüm qaşla göz arasındadır" deyirlər. İndi eşitdiyim bu xəbərə çox pis oldum. Dostum Aslan, Allah sənə rəhmət eləsin".

**Afət Fərmanqızı acısını belə dilə gətirib:** "Çox heyif... Necə gözəl insan idi. Dostlar, dünya fanidir, gəlin, vaxtında bir-birimizə dəyər verək. Allah Aslan bəyə rəhmət eləsin. Moskvada konsertlərini yarımçıq qoyub anasının yasına gəldi. Kaş gəlməzdin".

**Rüfət Axundov deyib ki, itirə-itirə gedirik:** "Hər saniyənin bir hökmü var. Yaxınlarınızın sağ ikən qədrini bilin".

**Nazənin Salayeva daha bir sənət dostunu itirdiyini söyləyərək bunları qeyd edib:** "Çox vəfasız dünyada yaşayırıq. İtirə-itirə gedirik. Allah rəhmət eləsin, nur içində yatsın".

**Niyam Salami isə instaqram səhifəsində bu sözləri yazıb:** "Mənimlə gecə danışmısan. Həm ağladıq, həm də səni güldürdüm ki, fikrini dağıdım. Çünki ana ağrısını mən də çəkirəm. İndi yoldayam. Kaş sənin qəbrində ağlamağa yox, zarafat edib, gülməyə gələrdim. Allah günahlarımızı bağışlasın".

*Qeyd edək ki, 55 yaşlı müğənni Gəncədə anasının yanında dəfn olunub.*

**Samirə Ərəblinski**

## Arif Quliyevi ayılda bilmirlər

### Xalq artistinin vəziyyəti ağır olaraq qalır



**Koronavirusa yoluxan Xalq artisti Arif Quliyevdən xəbər var.**

Oğlu Rövşən Quliyev "Şərq"ə atasının son durumu ilə bağlı danışıb. Rövşən bəy xalq artisitinin səhhəti haqda bunları söyləyib: "Hazırda vəziyyəti çox ağırlaşıb. Beyni donub, ayılda bilmirlər. Sağ olsun dövlətimiz, müalicəsi ilə bağlı hər şey edib. Biz də gözləyirik. İndi həkimi gözləyirəm".

**Samirə**

## "Şou-biznes"də mehribanlıq əskikdir

### Elton etiraf etdi



**"Şou-biznes" sözü xoşuma gəlmir. Təbii, ümumi ad belədir. Amma o kəlmənin yaratdığı görüntünü bəyənmirəm". "Şərq" xəbər verir ki, bu sözləri "Özəl" proqramında qonaq olarkən müğənni Elton Hüseynəliyev deyib. O fikirlərinə bunları da əlavə edib:**

"Bəzi insanların gözündə canlandırdığı mənzərəni sevmirəm. Yoxsa illər əvvəl tanıdığım, çörək kəsdiyim insanlarla münasibətim yaxşıdır. Doğrudan da şou-biznesdə mehribanlıq əskikdir. Təbiilik olması gözəldir. Amma bəzi sünilikələr var. Son iki-üç ildə bu sünilikləri insanlar anlayır. Sadəcə gərək bir-birimizlə mehriban olaq. Öncə insan özündən başlamalıdır, o fikirdə olmalıyam".

**Samirə**

## Şəbnəm Tovuzlu özünü müdafiə etdi

### "Ucuz mahnı yoxdur, onu elə təqdim edənlər var"



**Müğənni Şəbnəm Tovuzlu "MTV Azərbaycan"a iddialı açıqlamalar verib.**

"Şərq"in məlumatına görə, o, ad çəkməsə də bir çox həmkarının bostanına "daş atıb". Şəbnəm deyib ki, ucuz mahnı yoxdur, onu elə təqdim edənlər var: "Ucuz ifaçılar mövcuddur. Adi bir bayatını zümzümə ilə ifa edəndə də gözəl səslənir. Hər şey səsdən asılıdır. Bəziləri efirdə deyir ki, Şəbnəm məndən mahnı istəsə, satmaram. Heç Şəbnəm səndən mahnı istəyib ki?.. Prodüseri yazıb ki, bir ifanı almaq fikrindəyik. Ucuz ifaçılar onlar kimiləridir".

*Xatırladaq ki, bir müddət öncə müğənni İfrat Dünyamaliyev "Günə bir şou" verilişində qonaq olarkən Şəbnəmin səsinin zövqünə uyğun olmadığını və ona mahnını pulla belə verməyəcəyini söyləyib.*

**Samirə**

## Afət Manaf Ağayevi müdafiəyə qalxdı

### "Onun haqqına girənləri tapıb başa salıram"



**Müğənnilər Afət Fərmanqızı və Manaf Ağayev "Həmin Zaur" verilişində qonaq olarkən 25 ilə yaxındır dost olduqlarını söyləyiblər.**

*M.Ağayev Afətin heç də kişi dostlarından geri qalmadığını xüsusi vurğulayıb:* "Bəzən kefim olmur. Dərhal mənimlə maraqlanır". "Şərq" xəbər verir ki, A.Fərmanqızı isə Manafla dostluq əlaqələri haqda bunları deyib: "Ümumiyyətlə, haqsızlığı sevmirəm. Nə mənim Manafdan, nə də Manafın məndən maddi cəhətdən asılılığı yoxdur. Amma biz dostuq. Kimsə ona qarşı haqsızlıq edir. Mən qəbul edə bilmirəm. Haqqına girib rəy yazırlar. Manafın xəbəri olmur, yarım saata tapıb başa salıram".

**Samirə**

# Azərbaycan dünyada örnək dövlətə çevrilib



### "Bütün dini abidələr qorunur, inşa edilir, təmir olunur"

Ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, yeni mədəniyyət ocaqlarının yaradılması, dini məbədlərin təmiri Heydər Əliyev Fondunun fəaliyyətində mühüm yer tutur. İşğaldan azad olunmuş ərazilərdə tarixi-mədəni irsin, multikultural dəyərlərin bərpası hazırda ən vacib amillərdən hesab olunur.

Şuşadakı kilsənin təmiri, ermənilərin dağıtdığı və təhqir etdiyi məscidlərin fonunda kilsənin təmiri Azərbaycanın tolerantlığının göstəricisidir. Heydər Əliyev Fondu müxtəlif ölkələrdə tarixi-mədəni və dini obyektlərin bərpası, Azərbaycanın ümumbəşəri irsinin qorunub-saxlanmasında mühüm töhfələr verib.

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) səlahiyyətli nümayəndəsi Hacı Şahin İsmayılov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan ərazisində yerləşən məscidlər, sinaqoqlar və kilsələr daim inşa edilib, təmir olunur:** "Azərbaycanın müxtəlif dinlərə məxsus olan ölkələrin məbədlərini təmir etdirməsi dünya təcrübəsində nadir görünən haldır. Ölkəmizdə belə bir təcrübə var. Azərbaycanda bütün dini abidələr qorunur, inşa edilir, təmir olunur".

*QMİ nümayəndəsi qeyd edib ki, Azərbaycan kifayət qədər mədəniyyətli, multikultural dəyərlərə sahib ölkədir:* "Artıq dünya üçün bir örnəyə çevrilmişik. Ölkəmizə gələn xarici qonaqlar və din xadimləri bu mənzərəni gördükcə heyrətlərini gizlədə bilmirlər. Bu işlərin aparılmasında isə xüsusilə Heydər Əliyev Fondunun rolu çox böyükdür. Heydər Əliyev Fondu həm ölkə daxilində, həm də kənarda bəzi məbədlərin, dini abidələrin təmirinə dəstək göstərib, göstərir.

Dini, milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyev Fondunun rolu əvəzolunmazdır".

**Yeganə Bayramova**

## "Cavab verən olmadı"

### Rəşad İlyasov Aslan Hüseynova zəng edib



**Müğənni Aslan Hüseynov avtomobil qəzasında dünyasını dəyişib. Bu barədə Baku TV məlumat yayıb. Əvvəlcə maşında müğənninin özünün olmadığı söylənilsə də, sonradan xəbər təsdiqlənib.**

"Şərq"ə danışan müğənninin sənət dostu Rəşad İlyasov da üzücü xəbərin doğru olduğunu göz yaşları içərisində söyləyib: "Mən bilmirdim. Eşidəndə özünə zəng etdim , cavab verən olmadı. Sonra Səidə Dadaşova ilə əlaqə saxlayıblar. Təsdiqlənib. İndi Gəncəyə aparırlar. Çox təəssüf. Yaxın günlərdə anası dünyasını dəyişdi. İndi gənc yaşda özü vəfat etdi".

**Samirə**

## "Mən də öləndən sonra deyəcəksiniz ki..."

### Nadir Qafarzadə: "Elə indidən söyləyin ki, yaxşı oğlandır"



**"İndi üzücü bir xəbər eşitdim. Əvvəl dedilər Aslan vəfat edib, sonra yalanladılar, yenidən təsdiqləndi.**

Ölüm gözlə qaş arasındadır. Ona görə mehriban olaq, bir-birimizi pisləməyək, təhqir etməyək, qarğımayaq. Bir-birimizi itirdikdən sonra deməyək ki, o, yaxşı oğlan idi. İnsanlara sağlığında qiymət verək".

"Şərq" xəbər verir ki, bu sözləri həmkarı Aslan Hüseynovun ölümü haqda danışarkən müğənni Nadir Qafarzadə deyib. O, instaqramda paylaşdığı videoda bunları söyləyib: "Ölən insan sağ ikən də yaxşı idi. Niyə vəfat etdikdən sonra rəhmət oxuyurlar ki, yaxşı oğlan idi. Elə yaşayanda onun qədrini bilərdiniz. Gəlin, bir-birimizi "parçalayıb", "didməyək". Bir dost, xalqın övladı kimi deyirəm. Sonradan təəssüflənməyək. Aslan, Allah sənə rəhmət eləsin. Bir həftə öncə ananı itirdin. Yəqin ki qismət belə imiş, qardaşım.

Cənnətdə ananla görüş. Allahın dərgahına getdin, haqq dünyasına qovuşdun. Allah bütün ölənlərə, şəhidlərimizə, koronadan vəfat edənlərə rəhmət eləsin. Bilirəm, bu videonu paylaşacaqlar, məni təhqir-tənqid edəcəklər.

Etməyin! Çünki mən də öləndən sonra deyəcəksiniz ki, yaxşı oğlan idi. Elə indidən söyləyin ki, yaxşı oğlandır".

**Samirə Ərəblinski**

# 2 metr məsafəni qorumaq əsas şərtdir



*"Koronavirus bizi unutmadığı üçün, biz də məsuliyyətlərimizi unutmamalı və bezməməliyik"*

Artıq ikinci ildir ki, Ramazan ayı pandemiya ilə mübarizə dönəminə təsadüf edir. Belə olduqda oruc tutan insanları koronavirusdan qorunma tədbirləri ilə bağlı bir neçə nüanslar maraqlandırır.

İnsanlar çalışırlar ki, həm orucunu pozmasın, həm də koronavirusla mübarizənin qayda və tələblərini düzgün icra etsinlər. Bu baxımdan kütləvi iftar məclislərinin təşkili məqsədəuyğun deyil. İnsanlar kütləvi məclislərdə daha çox yoluxurlar. Yoluxma təhlükəsini azaltmaq, sağlamlığımızı qorumaq naminə bu cür kütləvilikdən, insanların sıx olduğu tədbirlərdən uzaq durmaq vacibdir.

Bütün dünyada COVİD-19 virusuna yoluxma halları yenidən çoxalmaqdadır. Aprelin 29-dan etibarən qardaş Türkiyə tam olaraq qapanma rejiminə keçib. Misirdə Ramazan bayramı ilə bağlı xeyriyyə məclisləri qadağan olunub, Dağıstan müftisinin müsəlmanları pandemiyaya görə əhalini məscidlərə getməkdən çəkindirmək üçün çağırışlar edib.

**Mövcud durumu "Şərq"ə şərh edən tanınmış həkim-psixoterapevt Əli Nağıyev bildirib ki, kütləvi məclislər və iftar süfrələri təhlükəli durum yarada bilər:** "Ərəb mənşəli olan insan sözünün mənası "nisyan", yəni unutqanlıqdır. Biz insanlar nəyisə unudub bezsək də, koronavirus nə unudur, nə bezir. Bəzi ölkələrdə, məsələn, Hindistanda koronavirus yeni ştammlarla növbəti dəfə hücuma keçməyə cəhd göstərir.

Ona görə də koronavirus bizi unutmadığı üçün, biz də məsuliyyətlərimizi unutmamalı və bezməməliyik.

İnsanlar nə qədər dua edib, Allahın mühafizəsinə sığınsalar da, ağlımızı işlətməliyik. "Qurani-Kərim" özü də hər zaman bizi ağıl işlətməyə, elmli olmağa və oxumağa təşviq edir. Məhz elmli, diqqətli və səbrli olmaq vadar edir ki, koronavirusa qarşı mübarizəmizdə əzmli olaq. İftar süfrələrində kütləvi yığışmaq olmaz, müvafiq məsafələr qorunmalıdır.

Fikrimcə, ara məsafəsini qorumaqla açıq havada iftarların təşkili daha düzgün olardı. Lakin 2 metr məsafəni qorumaq əsas şərtdir. Nə qədər müqəddəs bir ayda olsaq da, qapalı məkanlarda 15-20 nəfərin toplaşması infeksiyaya yoluxmaq baxımından doğru deyil".

**Yeganə Bayramova**

## 40 gün ac-susuz qalan rus yutuber həyatını itirdi



**40 gün ac-susuz qala biləcəyini iddia edən, "YouTube"da xeyli sayda abunəçiyə sahib rus Vitali Vıqranovski bu təcrübənin sonuna yaxın həyatını itirib.**

Sputnik Türkiyə-nin yaydığı məlumata görə, o, "challenge"ə bu ilin mart ayında Moskvada başlayıb. Ancaq Vıqranovski aclığın onuncu günündə vəziyyətinin pisləşdiyini, şəhər atmosferinin onu narahat etdiyini deyərək Abxaziyaya yola düşdüyünü və "challenge"inə orada davam edəcəyini bildirib. Yutuber iddiasının iyirminci günündə isə toxluq hiss etdiyini, arıqladığını və fiziki hərəkət etmək üçün enerjisinin qalmadığını deyib. Otuz beşinci gündə artıq ölmək üzrə olduğunu bildirməsinə baxmayaraq, "challenge"ə davam edən yutuber bunları bildirib: "Necə keçdi? Bu, sadəcə bir oyundur. Çox qəribə təcrübədir. Yeməyə heç bir meylim yoxdur. Bədənim tamam yenilənib, hər bir hüceyrəmə qədər təzələnmişəm". Bundan sonra Vıqranovskinin yaxınları sosial mediada verdikləri açıqlamada yutuberin "challenge"in sonunda həyatını itirdiyini bildiriblər. Onun dəqiq ölüm səbəbi isə hələlik açıqlanmayıb.

## Sevgiləri 4 ay çəkdi



**Türkiyənin məşhur cütlüyü, aktyor Uraz Kayqılaroğlu ilə həmkarı Berrak Tüzünataç ayrılıb.**

Axşam.az xəbər verir ki, onların hansı səbəbdən münasibətlərini sonlandırdığı isə məlum deyil. Uraz Kayqılaroğlu ilə Berrak Tüzünataç bu barədə hələlik açıqlama verməyiblər.

*Qeyd edək ki, cütlük 4 ay əvvəl münasibətə başlamışdı.*

# Rahatlıq gəzirlər, amma arxasında faciə var

Lənkəranda doğuşdan sonra ananın ölümü ilə bağlı araşdırmalara başlanıb. Lənkəran Rayon Prokurorluğundan verilən məlumata görə, mayın 3-də saat 21 radələrində Lənkəran rayonunun Soru kənd sakini Xangəldiyeva Rəqsanə Səmid qızının ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.



*Son zamanlar qeysəriyyə əməliyyatından sonra qadın ölümlərinin sayı artıb*

Aparılmış araşdırmalarla Rəqsanə Xangəldiyevanın mayın 2-də "39 həftəlik hamiləlik, dölün köndələn gəlişi, I cərrahi doğuş" diaqnozu ilə daxil olduğu Lənkəran rayon Mərkəzi Xəstəxanasının Perinatal Mərkəzində qeysəriyyə əməliyyatı nəticəsində uşağın doğulması, ertəsi gün ananın vəziyyətinin pisləşməsi və saat 21 radələrində ölməsi müəyyən edilib. Hazırda fakt üzrə Lənkəran Rayon Prokurorluğunda araşdırma aparılır.

Tibb elmləri doktoru, professor Adil Qeybulla "Şərq"ə açıqlamasında vurğulayıb ki, ümumiyyətlə, qeysəriyyə doğuşlarına görə konkret göstəriş olmalıdır. Əgər bu olarsa, o zaman onun həyata keçirilməsi məqsədəuyğundur: "Göstəriş yoxdursa, yaxşı olar ki, təbii şəkildə doğuş həyata keçirilsin. Son zamanlar qeysəriyyə əməliyyatından sonra qadın ölümlərinin sayının artdığı barədə məlumatlar səsləndirilir. Ancaq hesab edirəm ki, ölüm hallarının qeysəriyyə səbəbindən artması heç də doğru fikir deyil. Bu, Azərbaycanda hamiləliklərin normal fizioloji olmamasına daha çox bağlıdır. Çünki bu gün normal fizioloji hamiləlik tapmaq çətindir".

**A.Qeybulla əlavə edib ki, təəssüflər olsun ki, son zamanlar ölkəmizdə qeysəriyyədən əməliyyat olunanların sayı çoxalıb:** "Müxtəlif səbəblərdən, nədənsə, qadınlar buna meyillənirlər. Sadəcə olaraq hansısa ölüm halları baş verdikdə bunu dərhal əməliyyatla bağlayırlar. Amma çox nadir hallarda əməliyyata görə ölüm halları baş verə bilər. Əsasən bu, hamiləliklərə bağlıdır. Məsələn, ya qadının hansısa yanaşı bir xəstəliyi ola bilər və yaxud da həkimə çox gec müraciət edirlər və s. Ona görə də hamiləliyi fizioloji normal keçən adamların sayı demək olar ki, bu günləri tək-tükdür. Ona görə də bu kimi xoşagəlməz hallar yaşanır".

**Aynurə Pənahqızı**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**
**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**
Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**
**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 818

# Ata və oğul otlaq yerinə görə öldürüldü



**Konyada qanlı hadisə baş verib. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, Dağlıq ərazidə qoyunlar üçün otlaq yeri üstündə dava düşüb.**

Eyni məhəllədə yaşayan və münasibətləri heç də yaxşı olmayan Hüseyn K. ilə Hüseyn Kayabaş dağlıq ərazidə qarşılaşıblar. Tərəflər otlaq əraziyə görə mübahisə ediblər. Mübahisə davaya keçib və Hüseyn K.Hüseyn Kayabaşı və oğlu Osman Kayabaşa ov tüfəngindən atəş açıb. Ata və oğul qanlar içində qalıb, Hüseyn K. isə hadisə yerindən qaçıb. Osman Kayabaşı hadisə yerində keçinib. Atası Hüseyn Kayabaş isə hadisə yerinə gələn təcili yardım tərəfindən xəstəxanaya aparılıb. Lakin ata da yolda canını tapşırıb. Qətli törədən Hüseyn K. az sonra polis tərəfindən yaxalanıb.

**Məlahət**

# Özünü qorumaq üçün ilanı dişləyərək öldürüb



**Hindistanın Uttar Pradeş əyalətində Raj Kumar adlı kişi evinə girən ilan tərəfindən sancılıb.**

Maraqlısı budur ki, R.Kumar özünü qorumaq üçün ilanı dişləyərək öldürüb. "Şərq" "Haberler.com"a istinadən bildirir ki, xəstəxanaya aparılan kişinin vəziyyəti kritikdir.

**Həkim baş verən olayla bağlı bu sözləri söyləyib:**

"Xəstəxanamıza ilan sancdığı üçün gələnlər çox olub. Amma heç kim ilanı dişləməyib. İlana qarşılıq verən Kumar onu dişlədikdən sonra çeynəyərək parçalara ayırıb".

**Yeganə**

# Boşandı və 2 yaşlı oğlunu satdı

## Polisin müdaxiləsindən sonra uşaq tapılaraq əmisinə verilib



**Çində baş verən hadisə hər kəsi heyrətləndirib.**

Zhejiang əyalətində Se Xie adlı ata boşandığı arvadından olan 2 yaşlı oğlunu satıb.

"Şərq" "Sabah.com"a istinadən xəbər verir ki, ata bu dəhşətli əmələ keçmiş arvadı ilə mübahisəsinə son qoymaq üçün əl atıb. Uşağın övladı olmayan bir cütlüyə 158 min yuana satıldığı qeyd olunub. Atadan şübhələnən və uşağın anasını axtaran qohumlar polisə məlumat veriblər. Tutulan ata uşağının harada olduğunu söylədikdən sonra körpə əmisinə təhvil verilib.

**Yeganə**

# Alimlər okeanın dərinliklərində yeni kəşf edib



**Tədqiqatçılar əvvəllər oturaq orqanizmlər olduğu düşünülən dəniz süngərlərinin hərəkətini ilk dəfə qeyd edib.**

Alimlər pilotsuz sualtı hərəkət aparatından istifadə edərək Şimal Buzlu okeanındakı sualtı dağın Lanqset hissəni araşdırıb. Deyerler.org bildirir ki, tədqiqatçılar dəniz süngərlərinin arxada buraxdığı izlərini tapıb. Onlar dənizin dibinə yapışaraq, suda süzən çoxhüceyrəli heyvanlardır. Bu canlılar toxumalara və orqanlara malik deyil, onlar bədənin daxili kanallarından suyu keçirən müxtəlif hüceyrələrdən ibarətdir. Süngərlərin açılıb-yığılması hesabına hərəkət edə bilmələrinə dair dəlillər var. Bu onlara əlverişsiz ətraf mühit şəraitinin qarşısını almağa, qida olan yerləri tapmağa və çoxaldıqdan sonra yerdəyişməyə imkan verir.



# 40 günlük köç başladı

## *Bəzi köçərilər dəvələrdən də istifadə edir*







**Köçərilərin 40 günlük köçü başlayıb. Kameraların yüksəklikdən qeydə alındığı möhtəşəm görüntü heyranedicidir.**

"Milliiyet.com" xəbər verir ki, Türkiyənin Mərsin Gülnar, Silifke, Mut, Aydıncık və Bozyazı bölgələrinin geniş ərazilərində qış mövsümünü çadırlarda keçirən Sarıkeçili köçərilərinin Konya və Qaramana yolçuluğu başlayıb. Yolçuluq 40 gün davam edəcək. Köç zamanı bəzi köçərilər dəvələrdən də istifadə edir. Bu, tarixdən günümüzədək gəlib çıxmış ənənədir. Köçərilərin bəziləri çadırlarını, əşyalarını traktor və ya furqonlu avtomobillərə də yükləyirlər. Köçərilər 5-10 kilometr yol gedib, uyğun bir yerdə dayanır, dincəlir, sonra yenidən yola davam edirlər. Sarıkeçili köçərilərindən "Quş Əli" ləqəbiylə tanınan 63 yaşlı Əli Uçar Anadolunun 100 illik ənənəsinə sadiq qalaraq dəvələrlə hərəkət edir. 63 yaşlı köçəri məhz dağda yaşadıqları üçün koronavirus pandemiyasının onlara təsir göstərməmiş olduğunu, köçərilər arasında yoluxmaya rast gəlinmədiyini deyib: **"Bizim üçün heç bir sıxıntı olmadı. Bozyazıdan yola çıxdıq. Qaraman, Konyaya qədər gedəcəyik".**

**Məlahət**

# Uğur Şahin müjdəni verdi

## Daha təsirli peyvənd gəlir



**BioNTech şirkətinin qurucularından biri, tanınmış professor immunoloq Uğur Şahin daha təsirli olacaq peyvənd müjdəsi verdi.**

Türkiyə mətbuatı yazır ki, bu barədə "Reuters" xəbər yayıb. Xəbərdə bildirilir ki, Uğur Şahin koronavirusa qarşı daha uzun müddət təsirli olacaq yeni peyvənd istehsalı üçün çalışmalara başlandığını deyib. Bu, daha yüksək temperaturda və daha uzun müddət saxlana biləcək peyvənd olacaq. Yeni peyvənd hazırda təsdiqlənmə mərhələsindədir. "COVİD-19" əleyhinə yeni peyvənd adi soyuducularda 2-8 dərəcə arasında saxlana biləcək və istifadə müddəti 6 ay olacaq. Uğur Şahin qeyd edib ki, ilk peyvənd 80 dərəcədə saxlanan və daşınması çətin olan peyvənd idi. Lakin hazırda üzərində çalışmalar aparılan peyvənd isə məhz daha uzun müddət saxlanma üstünlüyünə malik olacağından daşınması da rahat həyata keçirilə biləcək. Uğur Şahinin müjdəsini verdiyi yeni peyvənd "Pfizer" şirkəti ilə birlikdə hazırlanır. Bu arada "BioNTech" peyvəndlərinin saxlanma şəraitini əks etdirən fotolar yayılıb. Türkiyədə peyvəndlərin saxlandığı ən böyük depo Ankaradadır. Depolarda tempeatur 80 dərəcədir. "Sinovac" və "BioNTech" peyvəndləri 7 gün 24 saat müşahidə altındadır, depodakı temperatur dəqiqliklə təqib edilir, hər hansı təhlükə şübhəsi olarsa dərhal müdaxilə edilir. Peyvəndlər həm də tək-tək əl ilə yoxlanır. Problem olub-olmadığı müəyyənləşir. Peyvəndlərin paketlənməsi də burda icra edilir. Peyvəndlər göndərildiyi yerə çatanadək də davamlı müşahidə altında olur.

**Məlahət**

# Qərar verdilər

## Bill Qeyts xanımından boşanır



**"Microsoft"un qurucusu, amerikalı milyarder Bill Qeyts və xanımı Melinda Qeyts boşanmağa qərar veriblər.**

B.Qeyts boşanma qərarını "Twitter" hesabında bu sözlərlə ifadə edib:

"Münasibətimiz haqqında çox düşündükdən sonra evliliyimizi bitirməyə qərar verdik". "Şərq" türk mediasına istinadən xəbər verir ki, cütlüyün 27 illik evliliyindən 3 uşağı var. B.Qeyts qurduqları təməllə dünyanın hər yerində insanların sağlam və məhsuldar həyat sürmələrinə kömək edən missiyalarına davam edəcəklərini bildirib: "Amma bundan sonra həyatımıza cütlük kimi davam edə bilmərik".

**Yeganə**